AZƏRBAYCANIN BÜTÖVLÜYÜ, MÜSTƏQİLLİYİ VƏ TƏRƏQQİSİ

# RESPUBLİKA

TƏSİSÇİ: AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN İŞLƏR İDARƏSİ VƏ QƏZETİN REDAKSİYA HEYƏTİ

23 MAY 2018-ci il ÇƏRŞƏNBƏ № 114 (6147) GÜNDƏLİK İCTİMAİ-SİYASİ, SOSİAL-İQTİSADİ QƏZET WWW.RESPUBLICA-NEWS.AZ

## Akademik Cəlal Əliyevin 90 illik yubileyinin keçirilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

2018-ci ilin iyun ayında Azərbaycanın görkəmli alimi, tanınmış ictimai xadim, Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi üzvü, əməkdar elm xadimi, biologiya elmləri doktoru, professor Cəlal Əlirza oğlu Əliyevin anadan olmasının 90 illiyi tamam olur.

Akademik Cəlal Əliyev fundamental araşdırmaları və elmi nailiyyətləri ilə Azərbaycanda biologiya elminin bir sıra yeni istiqamətlərini müəyyənləşdirmiş və onun aktual problemlərinin həllinə sanballı töhfələr vermişdir. Alimin nəzəriyyə və təcrübənin vəhdətini daim əsas götürməklə qazandığı nəticələrin tətbiqi respublika iqtisadiyyatının inkişafı və məhsuldarlığın yüksəldilməsi baxımından böyük əhəmiyyət kəsb etmişdir. Cəlal Əliyevin ölkədə bioloji müxtəlifliyin mühafizəsi və səmərəli istifadəsi strategiyasının işlənib hazırlanmasında mühüm xidməti vardır. Yetirmələri dünyanın müxtəlif tədqiqat mərkəzləri və tədris ocaqlarında bu gün də uğurla çalışan alim mötəbər beynəlxalq elmi təşkilatlarla əlaqələrin qurulması və Azərbaycan elminin nailiyyətlərinin tanıdılması üçün təqdirəlayiq işlər görmüşdür.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycanda biologiya elminin inkişafında, müasir kadr potensialının formalaşdırılmasında və ümumən elmin təşkilində uzunmüddətli ardıcıl fəaliyyətini nəzərə alaraq akademik Cəlal Əliyevin 90 illik yubileyinin keçirilməsini təmin etmək məqsədi ilə **qərara alıram:**

**1.** Azərbaycan Milli Elmlər Akademiyası Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi ilə birlikdə akademik Cəlal Əliyevin 90 illiyinə həsr olunmuş tədbirlər planını hazırlayıb həyata keçirsin.

**2.** Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 22 may 2018-ci il.**

## Azərbaycan Respublikasında ətraf mühitin mühafizəsi sahəsində xidmətləri olan şəxslərə "Əməkdar mühəndis" fəxri adının verilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycanda ətraf mühitin və təbii sərvətlərin qorunmasında xidmətlərinə görə aşağıdakı şəxslərə "Əməkdar mühəndis" fəxri adı verilsin:

Musayev Şahbəddin Cabbar oğlu
Şirəliyev Sadiq Qəzənfər oğlu
Tayıbov Rəhimbəy Tayıb oğlu.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 22 may 2018-ci il.**

## Goranboy rayonunda xalça istehsalı emalatxanasının tikintisi, təchizatı və infrastrukturunun yaradılması ilə bağlı tədbirlər haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1.** Goranboy rayonunda xalça istehsalı emalatxanasının tikintisi, avadanlıq və dəzgahlarla təchizatı və infrastrukturunun yaradılması məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 22 yanvar tarixli 3593 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının 2018-ci il dövlət büdcəsində dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitin bölgüsü"nün 1.49.5-ci yarımbəndində göstərilmiş məbləğin 2,0 (iki) milyon manatı "Azərxalça" Açıq Səhmdar Cəmiyyətinə ayrılsın.

**2.** Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

**3.** Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 22 may 2018-ci il.**

# Prezident İlham Əliyev Bakıda yüksəkgərginlikli avadanlıqlar zavodunun açılışında iştirak edib







**Mayın 22-də Bakının Suraxanı rayonunda "ATEF Şirkətlər Qrupu"nun yüksəkgərginlikli avadanlıqlar zavodunun açılışı olub.**

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev açılışda iştirak edib.

İqtisadiyyat naziri Şahin Mustafayev şirkətlər qrupunun yaranması və fəaliyyəti barədə dövlətimizin başçısına məlumat verdi. Bildirildi ki, "ATEF Şirkətlər Qrupu" innovativ və yüksək texnologiyalar əsasında rəqabətqabiliyyətli sənaye məhsulları istehsal edən müəssisələrdən biridir və son illərdə ölkədə sənayenin inkişafı sahəsində görülən işləri təcəssüm etdirir.

Qeyd edək ki, Prezident İlham Əliyevin müvafiq tapşırıqlarına uyğun olaraq həyata keçirilən iqtisadi islahatlar və iqtisadiyyatın şaxələndirilməsi siyasəti nəticəsində iqtisadiyyatın bütün sahələrində olduğu kimi, sənayenin inkişafında da böyük uğurlar qazanılıb, yüzlərlə müasir sənaye müəssisəsi açılıb. 2017-ci ildə ötən illə müqayisədə qeyri-neft sənaye məhsulları istehsalı 3,7 faiz artıb. Bu dinamika bu ilin birinci rübündə də davam edib, ötən ilin müvafiq dövrü ilə müqayisədə 9,9 faiz artma nail olunub.

"ATEF Şirkətlər Qrupu"nun rəhbəri Talıb Əlixanbəyov şirkətin Əmircan qəsəbəsindəki Bakı yağ transformatorları zavodu, Hövsandakı metal konstruksiya zavodu, Qaraçuxur qəsəbəsində iriqabaritli transformatorlar və elektrotexniki avadanlıqlar zavodları barədə məlumat verdi. Bildirildi ki, dövlətin güzəştli kreditlərindən istifadə etməklə Qaraçuxur qəsəbəsində inşa olunan iriqabaritli transformatorlar zavodu 2016-cı ildə Prezident İlham Əliyevin iştirakı ilə istifadəyə verilib, həmin ərazidə yüksəkgərginlikli avadanlıqlar zavodunun təməli qoyulub.

Ümumi investisiya dəyəri 29,7 milyon manat olan zavodun yaradılmasına İqtisadiyyat Nazirliyinin Sahibkarlığa Kömək Milli Fondu tərəfindən 10 milyon manat güzəştli kredit ayrılıb. Bundan başqa, müəssisəyə nazirlik tərəfindən investisiya təşviqi sənədi verilib ki, nəticədə 4,2 milyon manat vəsaitə qənaət olunaraq investisiya kimi layihənin icrasına yönəldilib. Müasir texnologiyalar əsasında yaradılan bu zavod inkişaf etmiş ölkələrin istehsalı olan avadanlıqlarla təchiz edilib. Eyni zamanda, "ATEF Şirkətlər Qrupu"nun ümumi dəyəri 20 milyon manat olan iriqabaritli transformatorlar və elektrotexniki avadanlıqlar və metal-konstruksiyalar zavodlarının yaradılmasına verilən 5 milyon manat güzəştli kredit vəsaitindən istifadə olunub və tam geri qaytarılıb.

Prezident İlham Əliyev yüksəkgərginlikli avadanlıqlar zavodunu işə saldı.

Dövlətimizin başçısı istehsal prosesi ilə tanış oldu.

Bildirildi ki, ümumi sahəsi 18 min kvadratmetr olan zavod 7 istehsal sahəsindən - bərk izolyasiya, kabel və mis anod istehsalı, əritmə və ekstruziya, mexaniki emal, yığma və sınaq sahələrindən ibarətdir. Zavodda illik 5 min 300 ədəd müxtəlif növ elektrotexniki avadanlıqların, o cümlədən güc transformatorları üçün izolyasiya detalları, yüksəkgərginlikli vakuum və eleqaz tipli açarlar, ayırıcılar, torpaqlayıcılar, ölçü transformatorları, kabellər və transformator buraxılışında istifadə olunan digər hissələrin istehsalı mümkündür. Qeyd olundu ki, bu məhsulların istehsalı üçün tələb olunan xammal və köməkçi detallar əvvəllər xarici bazarlardan alınırdı. Zavodun sınaq laboratoriyası da müasir səviyyədədir. Burada yerli mütəxəssislər beynəlxalq təcrübəyə əsaslanan intellektual biliklərdən istifadə edirlər.

**(davamı 2-ci səhifədə)**

## SƏMİMİ TƏBRİKLƏR

### Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə

Cənab Prezident.

Milli bayramınız 28 May - Respublika Günü münasibətilə Zati-alinizə ən səmimi salamlarımı çatdırmaqdan böyük məmnunluq hissi duyuram. Qarşıdan gələn illərdə Sizə və Azərbaycan xalqına firavanlıq və xoşbəxtlik arzulayıram.

*Hörmətlə,*

**Ülyahəzrət II Elizabet**
**Böyük Britaniya və Şimali İrlandiyanın Kraliçası**

### Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə

Möhtərəm cənab Prezident.

Azərbaycan Respublikasının milli bayramı - Respublika Günü münasibətilə Zati-alinizi, eləcə də bütün xalqınızı səmimi qəlbdən təbrik edirəm.

Əmin olduğumu bildirirəm ki, İran İslam Respublikası ilə Azərbaycan Respublikası arasında müxtəlif sahələrdə inkişaf etməkdə olan əlaqələr, hər iki ölkənin ali rəhbərliyinin siyasi iradəsi və səyləri sayəsində xalqlarımızın ortaq dəyərlərinə əsaslanaraq, daha da möhkəmlənəcək və genişlənəcəkdir.

Bu əlamətdar gündə Allah Təaladan Zati-alinizə möhkəm cansağlığı və müvəffəqiyyətlər, Azərbaycan Respublikasının xalqına isə rifah və səadət arzulayıram.

*Hörmətlə,*

**Həsən Ruhani**
**İran İslam Respublikasının Prezidenti**

### Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə

Zati-aliləri, Qardaşım İlham Heydər oğlu Əliyev.

Ölkənizin milli bayramı - Respublika Günü münasibətilə Səudiyyə Ərəbistanı Krallığının xalqı və Hökuməti adından, şəxsən öz adımdan Zati-alinizə ən səmimi təbriklərimi çatdırıram. Sizə möhkəm cansağlığı və xoşbəxtlik, qardaş Azərbaycan Hökumətinə və xalqına davamlı inkişaf və rifah arzu edirəm.

*Zati-alinizə hörmət və ehtiramla,*
*Qardaşınız*

**Salman bin Əbdüləziz Al Səud**
**İki Müqəddəs Ocağın Xadimi,**
**Səudiyyə Ərəbistanının Kralı.**

### Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə

Hörmətli cənab Prezident.

Azərbaycanın milli bayramı - Respublika Günü münasibətilə Sizi Xorvatiya Respublikasının vətəndaşları adından və şəxsən öz adımdan səmimi qəlbdən təbrik edir, ölkənizin və xalqınızın firavanlığı üçün ən xoş arzularımı bildirməkdən məmnunluq hissi duyuram.

Xorvatiya Respublikası ilə Azərbaycan Respublikası arasında son illər ərzində çox gözəl münasibətlər formalaşıb. Ölkələrimiz arasında mövcud olan bu dostluq və tərəfdaşlıq münasibətləri ikitərəfli və qlobal əhəmiyyətə malik dialoq və əməkdaşlıq münasibətlərinin daha da dərinləşməsinə əlavə təkan verəcək. Əminəm ki, bir çox sahələri əhatə edən əməkdaşlığımız xalqlarımız arasında qarşılıqlı anlaşma və dostluq münasibətləri naminə bundan sonra da möhkəmlənməkdə davam edəcək.

Sizinlə bu ilin sentyabr ayında Xorvatiya Respublikasına planlaşdırdığınız səfəriniz zamanı görüşməyi səbirsizliklə gözləyirəm. Əminəm ki, bu səfər dostluq münasibətlərimizin və Xorvatiya ilə Azərbaycan arasında mövcud olan hərtərəfli münasibətlərin qarşıdakı dövrdə daha da güclənməsinə əlavə stimul verəcək.

Cənab Prezident, xahiş edirəm ən yüksək ehtiramımı qəbul edin.

*Hörmətlə,*

**Kolinda Qrabar-Kitaroviç**
**Xorvatiya Respublikasının Prezidenti**

### Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə

Zati-aliləri.

Milli bayramınız - Respublika Günü münasibətilə Zati-alinizi və Azərbaycan xalqını Hindistan Hökuməti və xalqı adından, şəxsən öz adımdan səmimi qəlbdən təbrik edirəm.

Hindistan ilə Azərbaycan arasında tarixi əlaqələrə və inkişaf edən ikitərəfli əməkdaşlığa əsaslanan səmimi dostluq münasibətlərinin mövcud olduğunu qeyd etməkdən məmnunluq duyuram. Həqiqətən əlamətdar haldır ki, uzunömürlü dostluq münasibətlərimiz illər ərzində bir çox sahələrdə möhkəmlənib və dərinləşib.

Zati-aliləri, bu xoş fürsətdən istifadə edərək, Sizə möhkəm cansağlığı, dost Azərbaycan xalqının firavanlığı naminə ali dövləti fəaliyyətinizdə uğurlar arzulayıram.

Möhtərəm Prezident, ən yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

*Hörmətlə,*

**Ram Nat Kovind**
**Hindistan Respublikasının Prezidenti**

# Prezident İlham Əliyev Bakıda yüksəkgərginlikli avadanlıqlar zavodunun açılışında iştirak edib





(əvvəli 1-ci səhifədə)

Yüksəkgərginlikli avadanlıqlar zavodunun fəaliyyətə başlaması ilə transformator, yarımstansiya və digər elektrik avadanlıqlarının istehsalında yerli materiallardan istifadə olunması nəticəsində lokalizasiya səviyyəsi 70-90 faizə çatacaq ki, bu da buraxılan məhsulların maya dəyərinin aşağı düşməsinə, idxaldan asılılığın və ölkədən valyuta axınının qarşısının alınmasına səbəb olacaq. Zavodda 310 yeni iş yeri açılıb.

Diqqətə çatdırıldı ki, "ATEF Şirkətlər Qrupu" 2018-ci ildə 160 milyon dollar, o cümlədən ölkə daxilində 5 milyon dollar dəyərində, xarici ölkələrdə isə 155 milyon dollar dəyərində layihələrin həyata keçirilməsini qarşıya məqsəd qoyub. Xarici ölkələrdə layihələrin həyata keçirilməsi zamanı şirkətin istehsal etdiyi 95 milyon dollar dəyərində məhsulların ixracı nəzərdə tutulur. Hazırda şirkətlər qrupu xarici ölkələrdə nəzərdə tutulan bu layihələr üzrə dəyəri 100 milyon dollaradək olan tenderlərdə iştirak edir.




Məlumat üçün deyək ki, 2017-ci ildə dünyanın aparıcı sınaq laboratoriyalarından olan İtaliyanın "CESİ" laboratoriyasında "ATEF Şirkətlər Qrupu"nun yüksəkgərginlikli avadanlıqlar zavodunda istehsal edilən 40 MVA və 145 kV-luq güc transformatoru, Niderlandda yerləşən "KEMA" laboratoriyasında isə zavodun istehsal etdiyi gücü 2500 kVA-ya qədər olan yağ və quru tipli paylayıcı transformatorlar uğurla sınaqdan keçirilib, beynəlxalq sertifikatlar alınıb.

Dövlətimizin başçısının sənayeləşmə siyasətinə uyğun olaraq, qeyri-neft sənayesinin şaxələndirilməsi, mövcud təbii və iqtisadi resursların dövriyyəyə cəlb edilməsi, ənənəvi sənaye sahələri ilə yanaşı, yeni sənaye məhsulları istehsalı sahələrinin yaradılması istiqamətində mühüm işlər görülür. Belə müəssisələrin yaradılması göstərir ki, ölkəmizin sənaye potensialının möhkəmləndirilməsi istiqamətində məqsədyönlü tədbirlər uğurla davam edir. Dövlətin hərtərəfli dəstəyi ilə yaradılan bu müəssisələrin müasir texnologiyalardan istifadə yolu ilə istehsal etdiyi məhsulların ixrac coğrafiyası və həcmi isə ildən-ilə artır. Belə ki, 2013-cü ildə 5 milyon dollar dəyərində məhsul ixrac olunduğu halda, 2017-ci ildə 27 milyon dollar dəyərində məhsul ixrac edilib. Bu ilin ilk dörd ayında isə 16 milyon dollar dəyərində məhsul ixrac olunub. Qeyd edək ki, hazırda "ATEF Şirkətlər Qrupu"nun müəssisələrində ümumilikdə 2400 nəfər işlə təmin olunub.



Sonda xatirə şəkli çəkdirildi.

**AZƏRTAC**

## Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi işçilərinin peşə bayramı münasibətilə bir qrup şəxsin təltif edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycanda ətraf mühitin qorunmasında xidmətlərinə görə aşağıdakı şəxslər təltif edilsinlər:

**"Tərəqqi" medalı ilə**

Axundov Mehman Maqsud oğlu
Əhmədova Xanım Nutvəli qızı
Əsgərova Aybəniz İman qızı
İsmayılov Məhərrəm Həsən oğlu
Məmmədova Gülnarə Əjdər qızı
Mustafayev Səlim İbrahim oğlu
Sadıqov Zahir Valeh oğlu
Salahov İlham Abdulla oğlu
Səfərov Oruc İsa oğlu
Vəliyev Rəfi Həbibullah oğlu

**"Dövlət qulluğunda fərqlənməyə görə" medalı ilə**

Səttar-zadə Rasim İsrafil oğlu
Yaqubova Solmaz Bala-ağa qızı
Zülfüqarova Vəfa Məhəmməd qızı.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 22 may 2018-ci il.**

## Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin tabeliyində Aqrar Tədqiqatlar Mərkəzinin yaradılması haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Aqrar sahədə elmi tədqiqat institutlarının fəaliyyətinin gücləndirilməsi, təhlil, qiymətləndirmə və proqnozlaşdırmanın aparılması, aqrar-sənaye kompleksi üzrə müxtəlif xidmətlərin, o cümlədən dövlət sifarişlərinin yerinə yetirilməsi, kənd təsərrüfatının inkişafı ilə bağlı məlumat bazasının yaradılması, proqram və layihələrin hazırlanması, sahənin strateji planlaşdırılmasının və innovativ inkişafının təmin edilməsi məqsədi ilə Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1.** Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin tabeliyindəki Kənd Təsərrüfatının İqtisadiyyatı Elmi Tədqiqat İnstitutu (bundan sonra - Elmi Tədqiqat İnstitutu) publik hüquqi şəxs statusu olan Aqrar Tədqiqatlar Mərkəzinə (bundan sonra - Mərkəz) çevrilmə yolu ilə yenidən təşkil edilsin.

**2.** Müəyyən edilsin ki, Mərkəzin təsisçisinin "Publik hüquqi şəxslər haqqında" Azərbaycan Respublikası Qanununun 8.2-ci maddəsində qeyd edilən səlahiyyətlərini Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi həyata keçirir.

**3.** Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi beynəlxalq ekspertlərin Mərkəzin fəaliyyətinə cəlb edilməsini təmin etsin və onun fəaliyyətinin dövlət-özəl sektor tərəfdaşlığı prinsipi əsasında təşkili ilə bağlı tədbirlər görsün.

**4.** Mərkəzin nizamnamə fondunun formalaşdırılması üçün Azərbaycan Respublikasının 2018-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan 1 (bir) milyon manat ayrılsın.

**5.** Azərbaycan Respublikasının Nazirlər Kabineti:

*5.1.* Azərbaycan Respublikası Prezidentinin aktlarının bu Fərmana uyğunlaşdırılması ilə bağlı təkliflərini iki ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

*5.2.* Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının bu Fərmana uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

*5.3.* mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının bu Fərmana uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə üç ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

*5.4.* bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

**6.** Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların bu Fərmana uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

**7.** Azərbaycan Respublikasının Əmlak Məsələləri Dövlət Komitəsi Elmi Tədqiqat İnstitutunun istifadəsində olan dövlət əmlakının Mərkəz dövlət qeydiyyatına alındığı tarixdən bir ay müddətində onun balansına verilməsini təmin etsin.

**8.** Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Fərmanın 4-cü hissəsində göstərilən məbləğdə maliyyələşməni müəyyən olunmuş qaydada təmin etsin, "Azərbaycan Respublikasının 2018-ci il dövlət büdcəsi haqqında" Azərbaycan Respublikası Qanununun tətbiqi ilə bağlı bir sıra məsələlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 25 dekabr tarixli 1756 nömrəli Fərmanının 1.1.3.9-cu yarımbəndində Elmi Tədqiqat İnstitutu üçün nəzərdə tutulmuş vəsaitin qalığının Mərkəzin hesabına köçürülməsi ilə bağlı tədbirlər görsün və Mərkəzin saxlanılması üçün tələb olunan vəsaiti növbəti illərdə dövlət büdcəsinin layihəsində nəzərdə tutsun.

**9.** Mərkəz "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş qaydada dövlət qeydiyyatına alındığı günədək Elmi Tədqiqat İnstitutu öz fəaliyyətini davam etdirsin.

**10.** Azərbaycan Respublikasının Vergilər Nazirliyi Mərkəzin dövlət qeydiyyatı ilə bağlı zəruri tədbirləri həyata keçirsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 22 may 2018-ci il.**

## Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə

Hörmətli cənab Prezident.

Milli bayramınız - Respublika Günü münasibətilə Zati-alinizə ən xoş təbriklərimi çatdırıram.

Bu xoş fürsətdən istifadə edərək, Sizə möhkəm cansağlığı, xoşbəxtlik, Azərbaycan xalqına isə firavanlıq arzu edirəm.

*Hörmətlə,*

**Karl Qustav**
**İsveçin Kralı.**

## Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə

Zati-aliləri.

Milli bayramınız - Respublika Günü münasibətilə Sizi səmimi qəlbdən təbrik edirəm. Cənab Prezident, Sizə və Azərbaycan xalqına xoş arzularımı bildirir və ölkənizə tərəqqi diləyirəm.

*Dərin hörmətlə,*

**V Harald**
**Norveçin Kralı**

## Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə

Zati-aliləri.

Azərbaycanın milli bayramı - Respublika Günü münasibətilə Sizə, Azərbaycan Respublikasının hökumətinə və xalqına Avstraliya hökuməti və xalqı adından ən səmimi arzularımı çatdırıram.

Yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə Sizi təbrik edirəm.

Avstraliya ilə Azərbaycan arasında səmimi dostluq münasibətləri mövcuddur. Avstraliyanın beynəlxalq inkişaf və Sakit okean əməkdaşlığı naziri, senator Konçetta Fierravanti-Uellsin 2017-ci ilin iyun ayında dövlətlərimiz arasında ikitərəfli münasibətlərin qurulmasının 25 illiyini qeyd etmək üçün Bakıda səfərdə olmasını məmnuniyyətlə xatırlayıram.

Avstraliya Azərbaycanın suverenliyini və ərazi bütövlüyünü həmişə qətiyyətlə dəstəkləyib və biz gələcəkdə də bu dəstəyimizi davam etdirəcəyik. Mən, həmçinin bu il müstəqilliyinin 100 illiyini qeyd edən Azərbaycan dövlətini təbrik edirəm.

Ölkələrimiz arasında parlamentlər səviyyəsində və siyasi münasibətlər sahəsində çox sıx əməkdaşlıq mövcuddur. Əminəm ki, xüsusilə dövlətinizin öz iqtisadiyyatını şaxələndirilməsi istiqamətində səylər göstərməkdə maraqlı olduğu bir dönəmdə qarşıdakı illərdə Avstraliya ilə Azərbaycan arasında ticarət və investisiya qoyuluşu sahələrində əməkdaşlığımızı daha da artıra bilərik.

İnanıram ki, ölkələrimiz arasında mövcud olan dostluq münasibətləri növbəti illərdə də inkişaf edəcəkdir.

*Hörmətlə,*

**Piter Kosqrov**
**Avstraliya İttifaqının General-Qubernatoru**

## Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə

Zati-aliləri, cənab Prezident.

Azərbaycanın milli bayramı - Respublika Günü münasibətilə Zati-alinizi Livan xalqı adından və şəxsən öz adımdan səmimi qəlbdən təbrik edir, Sizə xoşbəxtlik və uğurlar, Azərbaycan xalqına isə rifah arzulayıram.

**General Mişel Aun**
**Livan Respublikasının Prezidenti**

## Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə

Cənab Prezident.

Azərbaycan Respublikasının milli bayramı - 28 May - Respublika Günü münasibətilə Sizi Qabon xalqı və hökuməti adından, şəxsən öz adımdan səmimi qəlbdən təbrik edirəm.

Zati-aliləri, Qabon Respublikası ilə Azərbaycan Respublikası arasında mövcud dostluq münasibətlərinin yüksək səviyyədə olmasından məmnunluğumu bildirmək istərdim.

Bu xoş fürsətdən istifadə edərək, ölkələrimiz arasında səmərəli əməkdaşlığın inkişafı, xalqlarımızın maraqları naminə Sizinlə birgə işləmək arzumu bir daha ifadə etməkdən məmnunam.

Cənab Prezident, ən yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

*Hörmətlə,*

**Əli Bonqo Ondimba**
**Qabon Respublikasının Prezidenti**

## Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə

Zati-aliləri.

Ölkənizin milli bayramı - Respublika Günü münasibətilə Zati-alinizi və Azərbaycan xalqını səmimi qəlbdən təbrik edirəm. Zati-aliləri, Sizə Uca Allahdan möhkəm cansağlığı və xoşbəxtlik, Azərbaycan xalqına isə tərəqqi və rifah diləyirəm.

İslam Əməkdaşlıq Təşkilatı Azərbaycan Respublikası ilə sıx əlaqələri, ölkənizin İƏT-ə dəstəyini, təşkilatın yaradılmasının məqsədi olan İslam həmrəyliyinin təbliğində rolunu yüksək qiymətləndirir. Əmin ola bilərsiniz ki, İslam Əməkdaşlıq Təşkilatı üzv ölkələr arasında birgə dəyərləri təbliğ etmək, qarşılıqlı əməkdaşlığı gücləndirmək üçün səylərini bundan sonra da davam etdirəcək.

Əminəm ki, Zati-aliniz üzv ölkələrin xalqları arasında əməkdaşlığın və İslam həmrəyliyinin möhkəmləndirilməsinə dəstəyini və töhfələrini bundan sonra da əsirgəməyəcəkdir.

Cənab Prezident, ən yüksək ehtiramımı və hörmətimi qəbul etməyinizi xahiş edirəm.

*Qardaşınız*

**Yusif bin Əhməd əl-Useymin**
**İslam Əməkdaşlıq Təşkilatının baş katibi**

## Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə

Zati-aliləri.

Ölkənizin milli bayramı - Respublika Günü münasibətilə Zati-alinizə ən səmimi təbriklərimi çatdırıram. Sizə möhkəm cansağlığı və xoşbəxtlik, qardaş Azərbaycan Hökumətinə və xalqına daha böyük inkişaf və rifah arzu edirəm.

*Zati-alinizə hörmət və ehtiramla,*

**Məhəmməd bin Salman bin Əbdüləziz Al Səud**
**Səudiyyə Ərəbistanı Krallığının vəliəhdi, Baş nazirin müavini, müdafiə naziri**

## Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə

Möhtərəm cənab Prezident.

Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərinin icrasına başlamağınız münasibətilə Sizi Slovakiya Respublikasının vətəndaşları adından və şəxsən öz adımdan təbrik edirəm.

Ümid edirəm ki, Slovakiya ilə Azərbaycan arasında dostluq münasibətləri gələcəkdə də ölkələrimizin vətəndaşlarının rifahı naminə inkişaf edəcəkdir.

Hörmətli cənab Prezident, Sizin ölkənizə və onun bütün vətəndaşlarına sülh, firavanlıq və demokratik vətəndaş cəmiyyəti quruculuğu yolunda uğurlar arzulayıram.

*Hörmətlə,*

**Andrey Kiska**
**Slovakiya Respublikasının Prezidenti**

## Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə

Zati-aliləri, cənab Prezident.

Sizin yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz xəbəri məni çox sevindirdi. Bu xoş fürsətdən istifadə edərək Sizi inamlı qələbəniz münasibətilə təbrik edirəm.

Azərbaycanın və Avstriyanın nəqliyyat, o cümlədən innovasiya və informasiya texnologiyaları sahəsində ortaq maraqları var. Əminəm ki, ölkələrimiz arasında bu sahələrdə mövcud olan uzunmüddətli əməkdaşlığımızı gələcəkdə daha da inkişaf etdirəcəyik.

Ölkələrimiz arasında infrastruktur texnologiyaları sahəsində əməkdaşlığımızdan çox məmnunam. Bu sahədəki tərəfdaşlığımızı Azərbaycan Respublikasının Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi ilə Avstriya Respublikasının Federal Nəqliyyat, İnnovasiya və Texnologiya Nazirliyi arasında nəqliyyat, innovasiya və informasiya texnologiyaları sahəsində imzalanmış əməkdaşlıq haqqında Anlaşma Memorandumu çərçivəsində daha da inkişaf etdirmək niyyətindəyik.

*Hörmətlə,*

**Norbert Hofer**
**Avstriyanın federal nəqliyyat, innovasiya və texnologiya naziri**

## Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə

Zati-aliləri.

Yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə Sizi təbrik edirəm. Cənab Prezident, Dünya Səhiyyə Təşkilatının Azərbaycanla əməkdaşlığını insanların sağlamlığı, eləcə də onların milli və qlobal səviyyədə əmin-amanlığı naminə daha da möhkəmləndirmək barədə niyyətini Sizə bir daha bəyan etməkdən şərəf hissi duyuram.

Böyük məmnuniyyətlə bildirmək istəyirəm ki, bu il iyulun 4-dən 6-dək Sizin ölkənizə səfər edəcəyəm və bu səfər zamanı Sizinlə görüşməkdən böyük şərəf hissi duyacağam. Rəhbərlik etdiyim təşkilat ölkənizin Xarici İşlər, Səhiyyə nazirlikləri, Azərbaycan Respublikasının Birləşmiş Millətlər Təşkilatındakı (BMT) daimi nümayəndəliyi, Dünya Səhiyyə Təşkilatının Avropa regional ofisi və ölkənizdəki ofisi ilə Azərbaycan və Dünya Səhiyyə Təşkilatı üçün qarşılıqlı faydalı olan proqramın işlənib hazırlanmasında və gözlədiyi nəticələrin əldə olunması istiqamətində sıx əməkdaşlıq edəcək. İyul ayında Sizinlə görüşməyi səbirsizliklə gözləyirəm.

Zati-aliləri, xahiş edirəm, ən yüksək ehtiramımı qəbul edin.

*Hörmətlə,*

**Tedros Adxanom Qebreyesus**
**Dünya Səhiyyə Təşkilatının baş direktoru**

## Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə

Cənab Prezident.

Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi ərəfəsində keçirilən prezident seçkilərində inamlı qələbəniz münasibətilə Sizi Fransa Milli Assambleyasının Fransa-Azərbaycan dostluq qrupunun üzvləri adından təbrik etməkdən məmnunluq duyuram.

Əminik ki, prezidentliyinizin dördüncü dönəmində Azərbaycan Respublikası ilə Fransa Respublikası arasında bütün sahələrdə, o cümlədən ümumi təhlükəsizliyin möhkəmləndirilməsi, terrorizmə qarşı mübarizə, Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüququn norma və prinsipləri çərçivəsində həlli yollarının axtarılması, gələcək strateji tərəfdaşlığa dair saziş çərçivəsində Azərbaycan ilə Avropa İttifaqı arasında əlaqələrin genişləndirilməsi, sərmayə qoyuluşunun və enerji mübadiləsinin, ikitərəfli mədəni əlaqələrin inkişafı, frankofoniyanın təbliği və digər istiqamətlərdə dostluq münasibətləri daha da güclənəcək.

Cənab Prezident, ən dərin ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

*Hörmətlə,*

**Pyer Alen Rafan**
**Fransa Milli Assambleyasının Fransa-Azərbaycan dostluq qrupunun rəhbəri**

## Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə

Cənab Prezident.

Yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə Sizə Fransa Beynəlxalq Şirkətlər Hərəkatı (MEDEF İnternational) adından təbriklərimi çatdırmaqdan məmnunluq və şərəf duyuram.

Fransa biznes konfederasiyasını və ikitərəfli əsasda xaricdə fəaliyyət göstərən özəl sektorun 70 faizini təmsil edən MEDEF İnternational Fransa ilə Azərbaycan arasında iqtisadi-ticari əlaqələrin genişlənməsinə, həmçinin ölkələrimizin biznes dairələrinin yaxınlaşmasına hər zaman töhfə vermişdir.

MEDEF İnternational və Fransa özəl sektoru Azərbaycanda çoxlu sayda biznes imkanlarının mövcudluğuna, Sizin Hökumətin dayanıqlı inkişafı dəstəkləmək və birgə inkişafa təkan vermək imkanlarına inanır.

Sizə prezidentliyinizin yeni dönəmində uğurlar arzu edirik. Fransaya səfər edəcəyiniz təqdirdə Sizi MEDEF İnternationalda salamlamağa çox şad olar və bundan şərəf duyarıq.

Cənab Prezident, bir daha Sizə yüksək ehtiramımı bildirirəm.

Mən Sizi MEDEF-də salamlamaqdan şərəf duyacağam. Fransa şirkətləri Sizin baxışlarınıza və güclü liderliyinizə hər zaman yüksək qiymət verir.

*Hörmətlə,*

**Xanım Mari-Anj Döbon**
**MEDEF-in biznes şurasının prezidenti və SUEZ qrupunun baş direktorunun müavini**

## Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə

Hörmətli İlham Heydər oğlu.

Yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə Sizi təbrik edirəm. Ölkənizin sürətli inkişafını müşahidə etdikcə Sizin gündən-günə gözəlləşən paytaxtınıza heyran oluram, Azərbaycan xalqının növbəti dəfə öz ölkəsinin rəhbərini tamamilə düzgün seçməsinin səbəbini anlayıram.

İlham Heydər oğlu, mən səmimi və açıq danışan insanam. Nə düşünürəmsə, onu da yazıram. Dünyanın ən gözəl və müasir paytaxtlarından birinə çevrilmiş Bakını görəndən sonra şadam ki, Heydər Əliyevin Azərbaycanın gözəl gələcəyi barədə arzuları həyata keçirilir. Geniş yayılmış və o qədər də yaxşı mənada işlənilməyən bir ifadə var - "Moskvanın əli". İcazə verin, başqa bir ifadədən istifadə edim və onu ən yaxşı mənada işlədim - "Bakının əli". Parisdə Versal sarayının parkındakı mədəniyyət abidələrinin və Luvrda İslam incəsənəti şöbəsinin bərpasında "Bakının əli". Berlin qəsrinin bərpası işlərində "Bakının əli". Romada, Kapitoliya muzeylərində "Filosoflar zalı"nın bərpasında "Bakının əli". Bakıda olarkən mən təkcə şəhərin deyil, insanların da gözəlləşdiyini gördüm. Onlar daha qəşəng görünürlər. Səliqəli geyinən insanlar müasir avtomobillərdə valehedici yollarda və nadir körpülərdə gəzirlər.

Mən, 50 ildən çox iş təcrübəsi olan kinematoqrafçı kimi, hansı ölkədə olsam, həmin ölkədə həqiqi kinonun olub-olmaması ilə maraqlanıram. Dünyanın bir sıra ölkələrində oxuyan, rəqs edən insanlar görmüşəm. Lakin tamaşaçını valeh edən əsl kino heç də bütün ölkələrdə yoxdur. Mən şadam ki, Azərbaycanda belə kino var! Aprelin axırlarında Bakıda mənə tamaşa etmək xoşbəxtliyi nəsib olmuş Heydər Əliyev haqqında film məni buna inandırdı. Bu film məni valeh etdi! Rusiyada hamı kimi, mən də Heydər Əliyevi görkəmli dövlət xadimi, yeni Azərbaycan dövlətinin banisi kimi tanıyırdım. Heydər Əliyevin həyatının bu filmdə bəhs edilən, Rusiyada məlum olmayan səhifələri sayəsində mən həqiqətən nadir bir şəxsiyyət gördüm! Filmi bizdə, Rusiyada çox məşhur olan və hörmət bəslənən Vaqif Mustafayev çəkib. O, dünya kinematoqrafında da çoxsaylı beynəlxalq festivalların mükafatlarının sahibi kimi məşhurdur. Vaqifin filmi məni - 70-dən çox filmin müəllifini elə ilk kadrlardan cəlb etdi. Bu filmə baxdıqca həmin əsərin qəhrəmanına o dərəcədə yaxınlıq hiss etdim ki, filmin sonuna qədər ona görə həyəcan keçirirdim. Onun düşmənləri mənim düşmənlərim, onun qələbələri mənim qələbələrim oldu.

Düşünürəm ki, bu filmin bütün gələcək tamaşaçıları onların milli mənsubiyyətindən asılı olmayaraq, özlərini filmin qəhrəmanına bənzədəcəklər. Ona görə ki, bu filmin ağıllı, nəcib, igid və cəlbedici qəhrəmanı ölkənin təhlükəsizliyinin keşiyində qətiyyətlə dayanmaqla bərabər, həm də günahsız insanları xilas edir. Yeri gəlmişkən, Vaqifin ssenarisi belə də adlanırdı - "İnsanları xilas etməyə gəlirəm". Məni sevindirən bu oldu ki, filmin ərsəyə gəlməsində Rusiyanın çoxsaylı məşhur kino xadimləri və tanınmış aktyorlar məmnuniyyətlə iştirak ediblər. Bu film özünün yüksək bədii və texniki səviyyəsinə görə, heç şübhəsiz, dünya səviyyəli kinematoqraf əsəridir. Buna görə də eşidəndə ki, Hollivud bu filmin yaradılmasına qoşulub, əsla təəccüblənmədim.

Hörmətli İlham Heydər oğlu, bu film Sizin rəhbərlik etdiyiniz ölkənin həyatının bütün sahələrində, o cümlədən incəsənətdə də qazandığınız nailiyyətlərin daha bir parlaq sübutudur.

*Hörmətlə,*

**Aleksandr Borodyanski,**
**Kinodramaturq, kinorejissor, Rusiya Kinematoqrafiya Sənəti və Elmləri Akademiyasının vitse-prezidenti, Rusiyanın Əməkdar İncəsənət Xadimi, RSFSR-in və Rusiya Federasiyasının Dövlət Mükafatları laureatı**

# Serbiya Prezidenti Aleksandr Vuçiçin Azərbaycana rəsmi səfəri

## Ümummilli lider Heydər Əliyevin məzarını ziyarət



Azərbaycan Respublikasında rəsmi səfərdə olan Serbiya Respublikasının Prezidenti Aleksandr Vuçiç mayın 22-də Fəxri xiyabana gələrək xalqımızın ümummilli lideri, müasir müstəqil dövlətimizin memarı və qurucusu Heydər Əliyevin xatirəsini ehtiramla anıb, məzarı önünə əklil qoyub.

AZƏRTAC xəbər verir ki, ali qonaq görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın da xatirəsini yad edib, məzarı üzərinə tər güllər düzüb.

## Serbiya Respublikasının Prezidenti Aleksandr Vuçiç mayın 22-də Şəhidlər xiyabanını ziyarət edib

AZƏRTAC xəbər verir ki, burada Serbiya Prezidentinin şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Prezident Aleksandr Vuçiç Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda mübarizədə canlarından keçmiş qəhrəman Vətən övladlarının məzarlarını ziyarət etdi.

Serbiya Prezidenti "Əbədi məşəl" abidəsinin önünə əklil qoydu.



Müdafiə Nazirliyinin əlahiddə nümunəvi orkestrinin ifasında Serbiyanın və Azərbaycanın dövlət himnləri səsləndi.

Bakının mənzərəsini seyr edən ali qonağa Şəhidlər xiyabanının tarixi və şəhərimizdə görülən abadlıq-quruculuq işləri barədə məlumat verildi.

**AZƏRTAC**

## Serbiya Prezidenti Aleksandr Vuçiç Milli Məclisdə olub

**Serbiya Respublikasının Prezidenti Aleksandr Vuçiç mayın 22-də Azərbaycan Respublikası Milli Məclisində olub.**



AZƏRTAC xəbər verir ki, Serbiya Prezidenti əvvəlcə Milli Məclisin iclas salonuna baxıb, parlamentin binasındakı Heydər Əliyev Xatirə Zalında olub. Burada qonağa Ümummilli Liderin həyat və fəaliyyəti, xarici ölkə rəhbərlərinin müxtəlif illərdə Azərbaycana səfərləri zamanı Heydər Əliyevlə görüşlərini əks etdirən fotoşəkillər, tarixi sənədlər, eləcə də Azərbaycan parlamentinin formalaşmasında və beynəlxalq əlaqələrinin qurulmasında Ulu Öndərin xidmətləri barədə məlumat verilib.

Serbiya Prezidenti xatirə kitabına ürək sözlərini yazıb.

Sonra Milli Məclisin sədri Oqtay Əsədov ilə Serbiya Prezidenti Aleksandr Vuçiç arasında görüş olub.

Oqtay Əsədov Aleksandr Vuçiçin vaxtilə Serbiyanın Baş naziri kimi də Milli Məclisdə olduğunu xatırladıb. Ölkələrimiz arasında əlaqələrin tarixindən danışan Milli Məclisin sədri münasibətlərimizin yeni müstəvidə inkişaf etdiyini bildirib. Vurğulayıb ki, ölkələrimiz bir-birinin ərazi bütövlüyünü dəstəkləyir. Oqtay Əsədov iki ölkə arasında iqtisadi əlaqələrin daha da inkişaf etdirilməsi üçün yaxşı potensialın olduğunu söyləyib.

O, ölkələrimiz arasında imzalanmış sənədlərin ikitərəfli münasibətlərin hüquqi bazasını təşkil etdiyini bildirib.

Azərbaycan-Serbiya parlamentlərarası əlaqələrindən danışan Milli Məclisin sədri dostluq qruplarının fəaliyyətini yüksək qiymətləndirib. O, beynəlxalq qurumlardakı əməkdaşlığın da razılıq doğurduğunu söyləyib.

Prezident Aleksandr Vuçiç dost ölkələr olan Azərbaycan ilə Serbiya arasında əlaqələrin inkişafından məmnunluğunu bildirib. Ölkələrimiz arasındakı münasibətlərin daha da genişlənməsi üçün böyük potensialın olduğunu deyən Serbiya Prezidenti bu istiqamətdə lazımi addımların atıldığını diqqətə çatdırıb.

Serbiya dövlətinin başçısı qeyd edib ki, ölkəsi Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli məsələsində hər zaman Azərbaycanın haqlı mövqeyini dəstəkləyəcək. O, Serbiyanın ərazi bütövlüyü və suverenliyi məsələsində göstərdiyi dəstəyə görə Azərbaycana təşəkkürünü bildirib. Vurğulayıb ki, Serbiya da hər zaman Azərbaycanın ərazi bütövlüyünü, suverenliyini dəstəkləyəcək.

Ali qonaq ölkəmizi uğurla reallaşdırdığı böyük layihələrə görə təbrik edib.

**AZƏRTAC**

# Serbiya Prezidentinə Azərbaycan Dillər Universitetinin fəxri doktoru diplomu təqdim edilib

**Mayın 22-də Azərbaycan Dillər Universitetində Serb Dili və Mədəniyyəti Mərkəzinin açılışı, Serbiya Respublikasının Prezidenti Aleksandr Vuçiçə bu ali məktəbin fəxri doktoru diplomunun təqdim edilməsi mərasimləri keçirilib.**

AZƏRTAC xəbər verir ki, əvvəlcə Prezident Aleksandr Vuçiç Azərbaycan Dillər Universitetinin rektoru akademik Kamal Abdulla ilə görüşüb. Görüşdə Azərbaycan ilə Serbiya arasında əlaqələrin inkişafından məmnunluq ifadə edilib.

Sonra Azərbaycan Dillər Universitetində Serbiya Dili və Mədəniyyəti Mərkəzinin açılışı olub.

Serbiya Prezidenti mərkəzin rəmzi açılışını bildirən lenti kəsib, burada yaradılan şəraitlə tanış olub. Dövlət başçısı mərkəzə xatirə hədiyyəsi təqdim edib.

Daha sonra universitetin akt zalında Serbiya Prezidentinə bu ali təhsil ocağının fəxri doktoru diplomunun təqdim edilməsi mərasimi keçirilib.

Universitetin tələbələrinin ifasında Serbiyanın dövlət himni səsləndirilib.



Mərasimdə çıxış edən rektor Kamal Abdulla Serbiya Prezidentinin Azərbaycanın dostu kimi tanındığını bildirib. "Əlamətdar hadisədir ki, universitetimizin elmi şurasının qərarı ilə Serbiya Prezidenti Aleksandr Vuçiçə Azərbaycan Dillər Universitetinin fəxri doktoru adı verilib", - deyən rektor Serbiya Prezidentini təbrik edib.

Kamal Abdulla xatırladıb ki, bu yaxınlarda Belqrad Universitetində Azərbaycan Dili və Mədəniyyəti Mərkəzi açılıb və Azərbaycan Dillər Universitetinin nümayəndə heyəti mərasimdə iştirak edib. Biz də Azərbaycan Dillər Universitetində çoxdan hazırlanan bir layihəni - Serb Dili və Mədəniyyəti Mərkəzinin açılışını məhz dövlət başçısı Aleksandr Vuçiçin ölkəmizə rəsmi səfəri zamanı reallaşdırdıq. Rektor əmin olduğunu bildirib ki, həm Belqrad Universitetindəki Azərbaycan Dili və Mədəniyyəti Mərkəzi, həm də Azərbaycan Dillər Universitetindəki Serb Dili və Mədəniyyəti Mərkəzi serbiyalı və azərbaycanlı gənclərin yaxınlaşmasına, mütəxəssislərimizin birgə layihələrdə iştirakına, universitetlərimiz arasında əlaqələrin genişlənməsinə əlverişli şərait yaradacaq.

Azərbaycan xalqının multikultural xalq olduğunu deyən rektor qeyd edib ki, bizim multikulturalizm modelimiz dünyanın bir çox universitetlərində tədris edilir: "Biz bu modelimizi Belqrad Universitetində də həyata keçirmək niyyətindəyik. Bu, Serbiya multikulturalizmi ilə Azərbaycan multikulturalizmi arasında oxşar cəhətləri öyrənmək üçün imkanlar açacaq".

Sonra Serbiya dövlətinin başçısına fəxri doktor diplomu və mantiya təqdim olunub.

Prezident Aleksandr Vuçiç Azərbaycan Dillər Universitetinin müəllim və tələbələri qarşısında çıxış edərək bu ali məktəbin fəxri doktoru adına layiq görülməsinin onun üçün böyük şərəf olduğunu deyib. Dövlət başçısı Azərbaycan Dillər Universitetində Serb Dili və Mədəniyyəti Mərkəzinin və Belqrad Universitetində Azərbaycan Dili və Mədəniyyəti Mərkəzinin fəaliyyətə başlamasının bu ölkələrin gəncləri arasında əlaqələrin genişlənməsinə töhfə olacağını vurğulayıb. Qeyd edib ki, Azərbaycan və Serbiya ərazi baxımından böyük ölkələr olmasalar da, müstəqil siyasət həyata keçirirlər. Serbiya Prezidenti ölkələrimiz və xalqlarımız arasında əlaqələrin bundan sonra daha da genişlənəcəyinə əminliyini bildirib, Azərbaycan Dillər Universitetinin kollektivinə uğurlar arzulayıb.

Daha sonra tələbələrin sualları cavablandırılıb.

**AZƏRTAC**

# Görkəmli alim Nikola Teslanın abidəsini ziyarət

**Serbiya Respublikasının Prezidenti Aleksandr Vuçiç mayın 22-də Bakıda serb xalqının böyük oğlu, görkəmli alim Nikola Teslanın abidəsini ziyarət edib.**



AZƏRTAC xəbər verir ki, dövlət başçısı Aleksandr Vuçiç Nikola Teslanın abidəsinin önünə gül dəstəsi qoyub.

Xatırladaq ki, açılışı 2013-cü ildə olmuş abidənin müəllifləri Xalq Rəssamı, heykəltəraş Ömər Eldarov və Əməkdar Memar Sənan Salamzadədir. Bürüncdən hazırlanmış abidənin hündürlüyü postamentlə birlikdə 3,3 metrdir.

Bakının mərkəzində yerləşən bu abidə Serbiya-Azərbaycan dostluğuna, əməkdaşlığına ucaldılan bir abidə hesab olunur. Abidənin fonunda görkəmli alimin əsas ixtiralarından olan dəyişən cərəyan generatorunu əks etdirən dekorativ panno quraşdırılıb.

**AZƏRTAC**

# YAP Gənclər Birliyi Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyinə həsr olunmuş tədbir təşkil edib





**Mayın 22-də Yeni Azərbaycan Partiyası (YAP) Gənclər Birliyi Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının 100 illik yubileyinə həsr olunmuş tədbir keçirib.**

AZƏRTAC xəbər verir ki, partiyanın Xətai rayon təşkilatının qərargahında keçirilən tədbirdə çıxış edən YAP Gənclər Birliyinin sədri Seymur Orucov Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının xalqımızın həyatında böyük və əlamətdar hadisə olduğunu bildirib. O, müsəlman Şərqində ilk demokratik respublika olan Azərbaycan Xalq Cümhuriyyətinin xalqımızın müstəqillik əzminin göstəricisi olduğunu qeyd edib.

YAP Xətai rayon təşkilatının sədri, Milli Məclisin deputatı Hüseynbala Mirələmov müsəlman Şərqində ilk parlamentli respublikanın məhz Azərbaycanda yaradılmasının qürurverici olduğunu vurğulayıb. O bildirib ki, Cümhuriyyətin qurucuları Azərbaycanın müstəqilliyini elan etməklə təkcə xalqımız üçün deyil, bütün İslam dünyası üçün böyük addım atıblar.

Tədbirdə iştirak edən Azərbaycan Respublikası Prezidentinin Katibliyinin rəisi - Prezidentin köməkçisi Dilarə Seyidzadə Azərbaycan Xalq Cümhuriyyətinin mövcud olduğu 23 ay müddətində əldə etdiyi mühüm uğurlardan danışıb. O bildirib ki, 1918-1920-ci illər dövlətçilik tariximizin şanlı səhifələrindəndir. Azadlıq ideyalarına, demokratik dəyərlərə sadiq qalan Cümhuriyyətin qurucuları olduqca ağır ictimai-siyasi şəraitdə Azərbaycanın istiqlaliyyətini elan edərək xalqımızın müstəqillik arzularını gerçəkləşdirdilər.

Dilarə Seyidzadə deyib ki, ümummilli liderimiz Heydər Əliyev öz fəaliyyətində hər zaman Azərbaycan Xalq Cümhuriyyətinə yüksək önəm verərək, həmin tarixi dövrün dərindən tədqiq edilməsinə, varislik prinsipinin qorunaraq daha da inkişaf etdirilməsinə xüsusi diqqətlə yanaşıb. Cümhuriyyətin beynəlxalq və ölkədaxili fəaliyyətinin əhəmiyyətini hər zaman yüksək qiymətləndirən ulu öndər Heydər Əliyevin layiqli davamçısı Prezident İlham Əliyevin Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyinin geniş qeyd olunması, eləcə də 2018-ci ilin ölkəmizdə "Azərbaycan Xalq Cümhuriyyəti İli" elan edilməsi haqqında sərəncamlar imzalaması tariximizə, keçmişimizə böyük ehtiramın təcəssümüdür.

Prezidentin köməkçisi gənclərimizin Cümhuriyyətin dəyərlərini, onun tarixini dərindən öyrənmələrinin və geniş təbliğ etmələrinin vacibliyini bildirib, tədbir iştirakçılarının suallarını cavablandırıb.

**AZƏRTAC**

# Dayanıqlı İnkişaf Məqsədlərinin həyata keçirilməsi ilə əlaqədar müzakirələr aparılıb

**Mayın 22-də Baş nazirin müavini, Azərbaycan Respublikasının Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurasının sədri Əli Əhmədov BMT-nin İnkişaf Proqramının Avropa və MDB ölkələri üzrə Regional Ofisinin Dayanıqlı İnkişaf Məqsədləri üzrə Qrupunun rəhbəri Corc Buma ilə görüşüb.**



AZƏRTAC xəbər verir ki, görüşdə BMT-nin Azərbaycandakı rezident əlaqələndiricisi, BMT İnkişaf Proqramının rezident nümayəndəsi Qulam İshaqzai və rezident əlaqələndiricinin müavini Alessandro Frakasetti Alessandro da iştirak ediblər.

Görüşdə Dayanıqlı İnkişaf Məqsədlərinin (DİM) yerinə yetirilməsində MAPS Missiya (Aktuallaşdırma, Sürətləndirmə və Siyasətə Dəstək) çərçivəsində müəyyən edilmiş sürətləndirici tədbirlərin həyata keçirilməsi istiqamətində DİM-lər üzrə Əlaqələndirmə Şurasının göstərdiyi səylərə BMT İnkişaf Proqramının davamlı dəstəyi müzakirə edilib.

Baş nazirin müavini Əli Əhmədov bildirib ki, Azərbaycan Hökuməti öz vəzifələrinə kifayət qədər məsuliyyətlə yanaşır. Prezident İlham Əliyevin 2016-cı il 6 oktyabr tarixli Fərmanı ilə Azərbaycan Respublikasının Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurası yaradılıb və Şuranın daimi əsaslarla fəaliyyət göstərən katibliyi formalaşıb. Azərbaycan Hökuməti Dayanıqlı İnkişaf Məqsədlərindən irəli gələn vəzifələri həyata keçirmək üçün bütün qüvvələrini səfərbər edib və Baş nazirin müavininin Milli Əlaqələndirmə Şurasına sədr təyin olunması bu məsələyə olan diqqətin göstəricisidir. Milli Əlaqələndirmə Şurası qısa vaxt ərzində bir çox mühüm işlər görüb.

Baş nazirin müavini diqqətə çatdırıb ki, Azərbaycan qlobal əməkdaşlıqlara çox böyük əhəmiyyət verir. Bu cür əməkdaşlıqların möhkəmləndirilməsi əsas məqsəd və vəzifələrdəndir.

Görüş zamanı Dayanıqlı İnkişaf Məqsədləri çərçivəsində həyata keçirilən tədbirlərin reallaşmasında BMT-nin Azərbaycandakı rezident əlaqələndiricisi və ofisinin verdiyi dəstək qeyd edilib. Bildirilib ki, yaranan səmərəli əməkdaşlıq modeli tədbirlərin həyata keçirilməsinə çox ciddi dəstəkdir.

BMT-nin İnkişaf Proqramının Avropa və MDB ölkələri üzrə Regional Ofisinin Dayanıqlı İnkişaf Məqsədləri üzrə Qrupunun rəhbəri Corc Buma Dayanıqlı İnkişaf Məqsədlərinin həyata keçirilməsi istiqamətində daim Azərbaycana dəstək olacaqlarını deyib, səmərəli tərəfdaşlıqdan məmnunluqlarını ifadə edib.

**AZƏRTAC**

# Serbiya Prezidenti Aleksandr Vuçiçin Azərbaycana rəsmi səfəri

## Azərbaycan-Serbiya işgüzar görüşü keçirilib

**Serbiya Prezidenti Aleksandr Vuçiçin Azərbaycana rəsmi səfəri çərçivəsində mayın 22-də İqtisadiyyat Nazirliyinin təşkilatçılığı ilə Azərbaycan-Serbiya işgüzar görüşü keçirilib.**



AZƏRTAC xəbər verir ki, tədbirdə rəsmi şəxslərlə yanaşı, Azərbaycanın kənd təsərrüfatı, tikinti, qida sənayesi, turizm, maşınqayırma, bankçılıq, İKT və sair sahələrdə fəaliyyət göstərən şirkətlərinin nümayəndələri iştirak ediblər.

Serbiya Prezidentini və nümayəndə heyətini salamlayan iqtisadiyyat naziri Şahin Mustafayev Azərbaycan-Serbiya əlaqələrinin strateji əməkdaşlığa, dostluq və qarşılıqlı hörmət prinsiplərinə əsaslandığını söyləyib. O, Azərbaycan və Serbiya dövlətlərinin başçılarının əməkdaşlığın inkişafına böyük əhəmiyyət verdiyini vurğulayıb. Bildirilib ki, Serbiya Prezidentinin səfəri zamanı imzalanmış sənədlər ölkələrimiz arasında müqavilə-hüquq bazasının genişlənməsinə və əlaqələrin daha da inkişafına öz töhfəsini verəcək.

İşgüzar dairələrin iştirakı ilə keçirilən tədbirlərin iqtisadi-ticarət əlaqələrinin genişlənməsində əhəmiyyətini qeyd edən nazir Şahin Mustafayev biznes təşəbbüslərinin stimullaşdırılması baxımından bugünkü işgüzar görüşün yeni əməkdaşlıq imkanlarının yaranmasına, mövcud əlaqələrin və ticarət əməkdaşlığının genişlənməsinə müsbət təsir göstərəcəyini bildirib.

Nazir Azərbaycanın "Azvirt" şirkətinin Serbiyada yol tikintisini həyata keçirdiyini qeyd edib, əməkdaşlıq imkanlarına dair fikirlərini bölüşüb.

Serbiya Prezidenti Aleksandr Vuçiç Azərbaycana səfərindən məmnunluğunu ifadə edib. O, səfəri çərçivəsində Azərbaycanla daha yaxından tanış olmaq üçün yaratdığı imkana görə Prezident İlham Əliyevə təşəkkür edib. Serbiyanın Azərbaycanla əlaqələrin genişləndirilməsinə önəm verdiyini, iki ölkə arasında iqtisadi əməkdaşlığın inkişaf etdiyini vurğulayan Prezident iqtisadi əlaqələrin yüksəksəviyyəli siyasi münasibətlər səviyyəsinə qalxması üçün imkanları diqqətə çatdırıb.

Qeyd olunub ki, səfəri zamanı imzalanmış sənədlər, o cümlədən strateji tərəfdaşlıq üzrə Birgə Fəaliyyət Planı ölkələrimiz arasında əlaqələrin inkişafına öz töhfəsini verəcək. Azərbaycanın Serbiyada yol tikintisini həyata keçirmiş "Azvirt" şirkətinin fəaliyyətini müsbət qiymətləndirən dövlət başçısı bu işin ölkəsinin digər regionlarında da davam etdirilməsinin önəmini qeyd edib. O, "Azvirt"in Azərbaycan biznesini Serbiyada yüksək səviyyədə təqdim etdiyini vurğulayıb.

Serbiya iqtisadiyyatı barədə məlumat verən Prezident Aleksandr Vuçiç Azərbaycan iş adamlarını Serbiyada layihələr həyata keçirməyə, ölkəsinin investisiya mühitindən yararlanmağa dəvət edib. Bildirib ki, Serbiyaya gələn turistlərin sayı ildən-ilə artır, Belqradda otel tikintisi, kurort turizminin inkişafı, eləcə də nəqliyyat-tranzit, kənd təsərrüfatı, sənaye, turizm və sair sahələrdə əməkdaşlıq üçün geniş imkanlar var.

Sonra Serbiya Prezidenti Aleksandr Vuçiç Azərbaycan şirkətlərinin nümayəndələrinin Serbiya iqtisadiyyatı, əməkdaşlıq imkanları ilə bağlı suallarını cavablandırıb. Serbiya Prezidentinin müşaviri Danilo Sisimil ölkəsindəki biznes mühiti barədə məlumat verib.

**AZƏRTAC**

## Səfər başa çatdı

**Serbiya Respublikasının Prezidenti Aleksandr Vuçiçin Azərbaycan Respublikasına rəsmi səfəri mayın 22-də başa çatıb.**

AZƏRTAC xəbər verir ki, hər iki ölkənin dövlət bayraqlarının dalğalandığı Heydər Əliyev Beynəlxalq Aeroportunda ali qonağın şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Serbiya Respublikasının Prezidenti Aleksandr Vuçiçi hava limanında Azərbaycan Respublikası Baş nazirinin birinci müavini Yaqub Eyyubov, xarici işlər nazirinin müavini Nadir Hüseynov və digər rəsmi şəxslər yola saldılar.

**AZƏRTAC**



# Xarici İşlər Nazirliyində geniştərkibli iclas keçirilib

**Xarici işlər naziri Elmar Məmmədyarovun sədrliyi ilə xarici işlər nazirinin müavinləri, kollegiya üzvləri, xüsusi tapşırıqlar üzrə səfirlər, nazirliyin idarə və struktur bölmələrinin rəhbərlərinin iştirakı ilə geniştərkibli iclas keçirilib.**

Xarici İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, iclasda Elmar Məmmədyarov Azərbaycan Prezidenti İlham Əliyevin Sərəncamı ilə xarici işlər nazirinin müavini təyin olunmuş Ramiz Həsənovu təqdim edib və ona fəaliyyətində uğurlar arzulayıb.

Nazir Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın müstəqil, tarazlaşdırılmış və çoxistiqamətli xarici siyasət yürütdüyünü qeyd edərək, dövlət başçısı tərəfindən Xarici İşlər Nazirliyinin qarşısında qoyulmuş vəzifə və tapşırıqları diqqətə çatdırıb.

İclasda 2019-cu ilin Azərbaycanda diplomatik xidmətin yaranmasının 100 illik yubileyinin olduğu qeyd edilib.

Xarici işlər nazirinin müavini təyin olunmuş Ramiz Həsənov Moskva Dövlət Beynəlxalq Əlaqələr İnstitutunu bitirib. O, Azərbaycanın Gürcüstanda fövqəladə və səlahiyyətli səfiri, Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsinin sədri kimi vəzifələrdə çalışıb.

**AZƏRTAC**

# Laos nümayəndə heyəti Azərbaycanda qadın və uşaq hüquqlarının müdafiəsi ilə bağlı görülən işlər barədə məlumatlandırılıb

**Mayın 22-də Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Hicran Hüseynova Laos Xalq İnqilabı Partiyası Mərkəzi Komitəsinin xarici əlaqələr komitəsinin sədri xanım Sounton Sayaçakın rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.**



AZƏRTAC xəbər verir ki, görüşdə Hicran Hüseynova iqtidar partiyaları olan Yeni Azərbaycan Partiyası (YAP) və Laos Xalq İnqilabı Partiyası arasında əməkdaşlığı yüksək dəyərləndirib. Bildirib ki, hər iki partiya qadınların ictimai fəallığına daim dəstək verir.

Bu il ölkəmizdə bir sıra önəmli tarixlərin qeyd olunduğunu bildirən Hicran Hüseynova müsəlman Şərqində ilk demokratik respublika olan Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik tarixindən danışıb. O, Azərbaycanda hətta bir sıra Avropa ölkələrindən əvvəl qadınlara səsvermə hüququnun verilməsinin önəmini qeyd edib. Ümummilli lider Heydər Əliyevin Azərbaycanda qadın hərəkatına daim dəstək verdiyini vurğulayan komitə sədri bu gün bu siyasətin Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirildiyini diqqətə çatdırıb.

Söhbət zamanı nümayəndə heyətinə Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin gördüyü işlər və qurumun beynəlxalq əlaqələri haqqında da məlumat verilib. H.Hüseynova Xocalı soyqırımı törədilən zamanı ermənilər tərəfindən qəddarlıqla öldürülən uşaqlara dair kitabı Sounton Sayaçaka təqdim edib.

Komitə sədri ölkəmizdə qadın və uşaq hüquqlarının müdafiəsi məsələsinin prioritet istiqamətlərdən olduğunu deyib. O, Prezident İlham Əliyevin və Birinci vitse-prezident Mehriban Əliyevanın diqqət və qayğısı sayəsində bu gün ölkəmizdə qadın və uşaq hüquqlarının müdafiəsi sahəsində mühüm addımların atıldığını qeyd edib.

Laos Xalq İnqilabı Partiyası Mərkəzi Komitəsinin xarici əlaqələr komitəsinin sədri Sounton Sayaçak Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyi münasibətilə təbriklərini çatdırıb. O, ötən gün Yeni Azərbaycan Partiyası ilə Laos Xalq İnqilabı Partiyası arasında əməkdaşlığa dair Memorandumun imzalanmasının əhəmiyyətini vurğulayıb.

Sounton Sayaçak bildirib ki, vaxtilə Bakıda təhsil almış laoslular sırasında o, özü də olub. Qeyd edib ki, həmin vaxtdan keçən illər ərzində Bakı çox dəyişib və daha da gözəlləşib. O, Azərbaycanın dinamik inkişafının Laos xalqını sevindirdiyini söyləyib. Vurğulayıb ki, Laos və Xalq İnqilabı Partiyası Mərkəzi Komitəsi Azərbaycan ilə hərtərəfli əməkdaşlıqda maraqlıdır.

Görüşdə qadın və uşaq hüquqlarının müdafiəsi, gender bərabərliyinin təmini, həyata keçirilən müvafiq layihələrdə səmərəliliyin artırılması ilə bağlı müzakirələr aparılıb.

YAP-ın beynəlxalq əlaqələr şöbəsinin müdiri, Milli Məclisin beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədr müavini Sevinc Fətəliyeva görüşdə iştirak edib.

**AZƏRTAC**

# Dövlət Komitəsində məcburi köçkünlərlə növbəti görüş

**Mayın 22-də Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri Rövşən Rzayev növbəti dəfə məcburi köçkünləri qəbul edib.**



Komitədən AZƏRTAC-a bildiriblər ki, qəbulda qurumun sədr müavinləri, şöbə və departament müdirləri, Bakı şəhəri üzrə sektor müdirləri və ərazisi işğal olunmuş rayonların icra hakimiyyəti başçılarının müavinləri iştirak ediblər. Bakı şəhərindən və bölgələrdən qəbula gələn məcburi köçkünlərlə mövcud problemlər, görülən işlərlə bağlı söhbətlər aparılıb. Onlar ayrı-ayrılıqda dinlənilib, qaldırılan məsələlərlə bağlı geniş izahat verilib.

Qəbulda müraciətlərin əsasən mənzillə bağlı olduğu nəzərə alınaraq qeyd olunub ki, ölkədə qaçqın və məcburi köçkünlərin problemlərinin həlli həmişə olduğu kimi hazırda da Azərbaycan Prezidenti İlham Əliyevin diqqət mərkəzindədir. Birinci vitse-prezident xanım Mehriban Əliyevanın rəhbərliyi və təşəbbüsü ilə qaçqın və məcburi köçkünlərin həyat şəraitinin yaxşılaşdırılması istiqamətində irimiqyaslı işlər, sosialyönümlü layihələr həyata keçirilir. Qeyd olunub ki, qəzalı binalarda yaşayan məcburi köçkünlərin problemlərinin həlli, o cümlədən mənzil-məişət şəraitlərinin yaxşılaşdırılması istiqamətində mərhələli və sistemli şəkildə işlər həyata keçirilir.

Qəbul zamanı məcburi köçkünlər tərəfindən əsasən mənzil, qeydiyyat, kommunal xidmətlər, təmir-bərpa, işədüzəlmə və digər bu kimi məsələlərlə bağlı kollektiv və fərdi qaydada müraciətlər edilib. Dövlət Komitəsinin sədri müraciətlərin qısa müddətdə araşdırılması və müvafiq tədbirlər görülməsi üçün tapşırıqlar verib.

**AZƏRTAC**

# "Heydər Əliyev və müasir Azərbaycan" adlı respublika elmi konfransı

**Azərbaycan Dillər Universitetinin (ADU) Tələbə Elmi Cəmiyyətinin təşkilatçılığı ilə ümummilli lider Heydər Əliyevin anadan olmasının 95-ci ildönümünə həsr olunmuş "Heydər Əliyev və müasir Azərbaycan" mövzusunda respublika tələbə-şagird elmi konfransı keçirilib.**



ADU rəhbərliyi və konfrans iştirakçıları ulu öndər Heydər Əliyevin xatirəsini yad edərək universitetin foyesində yerləşən büstü önünə tər çiçəklər qoyublar.

Konfransın açılış mərasimində Azərbaycan Respublikasının Dövlət Himni və "Gaudeamus" tələbə himni səsləndirilib.

Azərbaycan Dillər Universitetinin rektoru, konfransın təşkilat komitəsinin sədri, Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi üzvü, Əməkdar elm xadimi, professor Kamal Abdulla bu yaxınlarda ADU-da "Heydər Əliyev: multikulturalizm və tolerantlıq ideologiyası" adlı beynəlxalq konfransın keçirildiyini də diqqətə çatdırıb.

Konfransda paytaxtımızda və bölgələrdə fəaliyyət göstərən bir sıra məktəblərin direktor, müəllim və şagirdləri iştirak ediblər.

N.Aslanov adına Cocuq Mərcanlı kənd tam orta məktəbinin direktoru Zamin Həziyev 1993-cü ilin oktyabr ayında 12 yaşı olarkən ermənilərin torpaqlarımıza soxulması nəticəsində Cəbrayıl rayonunu tərk etdiyi anları xatırladı: "Şükürlər olsun ki, 24 il sonra 37 yaşımda öz torpağımıza qayıtdım. Bu gün Cocuq Mərcanlı çox gözəl günlərini yaşayır. Xaraba halına salınmış kəndin yerində gözoxşayan məktəb binası, yaşayış evləri tikildi, normal şərait quruldu. Cənab Prezident özü kəndin açılışında məktəbimizin qonağı olmuşdur".

Kəlbəcər rayonu 1 saylı orta məktəbin direktoru Fərqanə Əhmədova ulu öndərin bütün həyatını doğma xalqına sərf edən, milli dövlətçiliyin əsasını qoyan dahi lider olduğunu bildirdi.

Konfrans "Heydər Əliyev və azərbaycançılıq məfkurəsi", "Müasir Azərbaycan beynəlxalq münasibətlər sistemində", "Azərbaycan tarixi və mədəniyyəti", "Dil və ədəbiyyat", "Pedaqogika və psixologiya", "Multikulturalizm və tolerantlıq ideologiyası" mövzusunda bölmə iclasları ilə davam etdi.

Konfransın sonunda rektor Kamal Abdulla qaçqın və məcburi köçkün məktəblərinin direktor və şagirdlərinə hədiyyələr təqdim etdi.

Sonda Ağdam 1 nömrəli köçkün tam orta məktəbinin şagirdləri "Azərbaycan bayrağı" şeirinin sədaları altında səhnəyə üçrəngli bayrağımızı gətirdilər.

**Mehparə ƏLİYEVA, "Respublika".**

*Akademik Arif PAŞAYEV:*

# Yolların və elmi istiqamətlərin kəsişməsində

Moskvada nəşr olunan "Инженерная газета" nın may nömrəsində Azərbaycan Mühəndislik Akademiyasının (AMA) prezidenti, akademik Arif Paşayevin "Yolların və elmi istiqamətlərin kəsişməsində" sərlövhəli məqaləsi dərc edilib. AZƏRTAC məqaləni təqdim edir.

* * *


ИНДУСТРИЯ 2018 МАЙ № 6
ИДЕМ НА ПРОРЫВ
инженерная газета
Президент Российской Федерации Владимир Путин
Принята стратегия мирового прогресса
На пути формирования цифровой экономики
На перекрестье дорог и научных направлений
Совместными усилиями

Azərbaycan Mühəndislik Akademiyası (AMA) yaradıcı şəxsiyyətin özünüifadəsinə, təhsilin inkişafına, Azərbaycanda tətbiqi elmi tədqiqatların genişləndirilməsinə yönəlmiş bütün mühəndislik istiqamətləri üzrə alim və mütəxəssisləri öz sıralarında birləşdirən ictimai yaradıcı elmi təşkilatdır.

Akademiyanın sıralarında aparıcı elmi tədqiqat təşkilatlarının və ali məktəblərin elmlər doktorları və namizədləri, professorlar və dosentlər, mühəndislik elmi istiqamətlərinin əsasını qoyanlar cəmləşib. Akademiyanın üzvləri arasında Dövlət Mükafatı laureatları, əməkdar elm və texnika xadimləri, digər fəxri ad sahibləri vardır.

Akademiyanın üzvləri ali təhsilin dövlət standartlarının işlənib hazırlanmasında fəal iştirak edirlər. "Aviakosmos" istiqaməti üzrə gənc alimlər üçün hər il seminarlar, məktəblər təşkil edilir. AMA üzvləri ölkənin ali məktəblərinin akkreditasiyası prosesində iştirak ediblər. Elmi tədqiqat institutlarının proqramları əsasında ali və orta ixtisas təhsilinin keyfiyyətinin monitorinqi sistemi yaradılıb.

Azərbaycan Respublikasında kosmik sənayenin yaradılması və inkişafı üzrə Dövlət Proqramı həyata keçirilir. Orbitə çıxarılmış telekommunikasiya peykinin köməyi ilə hazırda 150-dən çox telekanal və 30 radiostansiya vasitəsilə yayım aparılır.

Bu il Azərbaycan Fransanın "Arianespace" şirkəti ilə birlikdə daha bir peyki orbitə çıxaracaq. "Azerspace-2" adlı bu peyk hazırda orbitdə olan "Azerspace-1" peykinin əhatə dairəsini genişləndirməklə bərabər, həm də onun ehtiyat variantı kimi xidmət edəcək. Bu, müştərilərə daha etibarlı xidmətlər göstərməyə imkan verəcək. Peykin xidmət zonası Avropa, Mərkəzi və Cənubi Asiya, Yaxın Şərq və Afrika ölkələrini əhatə edəcək. Mühəndislik Akademiyası bu proqramın reallaşdırılmasında fəal iştirak edir və Kosmos üzrə Şuraya rəhbərlik edir. Mühəndislik Akademiyası təbii ehtiyatların idarə edilməsi və istismarı ilə bağlı məsələlərin həllində, fotoqrammetrik və geoinformasiya layihələrinin icrası, tematik geoportalların və geoinformasiya sistemlərinin işlənib hazırlanmasında, aviakosmik informasiyanın işlənməsi üçün sifarişçinin alqoritmləri və metodikaları əsasında innovasiya texnologiyalarının yaradılmasında, habelə konsaltinq və kadr hazırlığı məsələlərinin həllində peykdən informasiyanın operativ qəbulu sahəsində "Azərkosmos" Açıq Səhmdar Cəmiyyətinin nailiyyətlərini əsas götürür.

Ətraf mühitin neftdən çirklənməsi parametrlərinin qiymətləndirilməsi üçün yüksək ayırdetmə qabiliyyətli RADARSAT-2 kosmik radiolokasiya sistemindən istifadə edilməsi əsasında Xəzər dənizinin Azərbaycan sektoru akvatoriyasında neft sızmalarının parametrləri aşkar edilib. RADARSAT-2 peykinin radiolokasiya təsvirlərindən və geoinformasiya yanaşmalarından istifadə əsasında Neft Daşları rayonunda neft ləkələrinin dinamikası və bu cür tullantıların obyektləri təhlil edilib, ləkələrin paylanması xəritəsi yaradılıb. Bu, aşkar edilmiş neft ləkələrinin parametrlərini və xarakteristikalarını operativ şəkildə ölçməyə, tədqiq olunan akvatoriyanın müxtəlif sahələrində neftin paylanmasını təhlil etməyə, dənizdə çirklənmələr və onların mənbələri arasında əlaqəni aşkar etməyə imkan verir.

2017-ci ildə energetika sahəsində tarixi hadisələr baş verib. Belə hadisələrdən biri də "Azəri-Çıraq-Günəşli" yatağına dair kontraktın müddətinin 2050-ci ilə qədər uzadılmasıdır. Azərbaycan Dövlət Neft Şirkəti - SOCAR digər tərəfdaşlarla birlikdə bu layihədə operator kimi iştirak edəcək. Azərbaycan Mühəndislik Akademiyasının üzvlərinin də fəal iştirak etdiyi bu layihə sayəsində biz hələ uzun illər boyu neft hasilatını sabit səviyyədə saxlaya biləcəyik.

Cənub Qaz Dəhlizi, TANAP və TAP kimi qlobal layihələr uğurla həyata keçirilir.

Marşrutların şaxələndirilməsi və Böyük İpək Yolu üzərində yerləşən ölkələrlə iqtisadi əlaqələrin genişləndirilməsi baxımından Avropa qitəsinin də nəqliyyat müstəqilliyini təmin edən daha bir genişmiqyaslı transregional layihə Bakı-Tbilisi-Qars dəmir yolu layihəsidir. Mühəndislik Akademiyasının üzvlərinin də iştirak etdiyi bu tarixi layihənin həyata keçirilməsi nəticəsində Azərbaycan beynəlxalq nəqliyyat mərkəzlərindən birinə çevrilir. Bizim Akademiyanın üzvləri İran sərhədinə qədər dəmir yolu çəkilişini təmin edən Şimal-Cənub nəqliyyat dəhlizinin reallaşdırılması istiqamətində mühüm addımlar atırlar.

Azərbaycanda Yeni Bakı Beynəlxalq Dəniz Ticarət Limanı kompleksinin birinci mərhələsi çərçivəsində Hollandiyanın "Royal Haskoning" şirkəti ilə birgə inşa edilmiş bərə terminalı açılıb. Bu layihədə Azərbaycan Mühəndislik Akademiyasının üzvləri də çox fəal iştirak ediblər. Limanda yükaşırmanın illik həcmi 25 milyon ton yükə və 1 milyon konteynerə bərabər olacaq. Layihəyə əsasən limanda logistika mərkəzinin yaradılması da böyük əhəmiyyət kəsb edir. Bu mərkəz Azərbaycanı Qərb ilə Şərq arasında yükaşırma mərkəzinə çevirəcək.

Heydər Əliyev Beynəlxalq Aeroportunun ərazisində ümumi sahəsi 12 min kvadratmetr olan Bakı Yük Terminalı açılıb. Bu layihə Beynəlxalq Yerüstü Xidmət Şirkətinin (İnternational Handling Company) maliyyə dəstəyi ilə "Khazar Construction" şirkəti tərəfindən həyata keçirilib. Böyük Britaniya, ABŞ və Kanadada istehsal edilmiş texniki avadanlıqlarla təchiz olunmuş terminalın əlverişli ərazidə yerləşməsi sayəsində Azərbaycan Amerikadan və Avropadan Asiyaya, eləcə də Asiyadan əks istiqamətdə daşınan yüklər üçün aşırma məntəqəsinə çevriləcək. Bu, "İpək Yolu" layihəsinin ayrılmaz tərkib hissəsidir. Bundan əlavə, terminal bütün regionlardan respublikamıza yük axınını xeyli artırmağa imkan verəcək, nəticədə Bakı avtomatik surətdə mühüm tranzit zonaya çevriləcək. Ekspertlər təsdiqləyirlər ki, bu terminal MDB məkanında ən böyük və texniki cəhətdən ən yaxşı təchiz olunmuş yük terminalıdır. Həmçinin bu terminal bütün Avropada ən yüksək beynəlxalq tələblərə cavab verən ən yaxşı yük terminallarından biridir. Terminalın texniki bazası yüklərin bütün növlərinin saxlanmasını və işlənməsini, müştərilər üçün servis xidmətlərinin keyfiyyətini xeyli artırmağı, gömrük xidmətlərinin tam dəstini, o cümlədən gömrük bəyannaməsi və yüklərin çatdırılması üzrə xidmətləri nəzərdə tutur. Aviaşirkət qeyri-neft sektorunun sərmayələşdirilməsi üzrə birinci yeri tutur. Bütövlükdə nəqliyyat sektoru çox sürətlə inkişaf edir. Dövlət konserninin işi sayəsində yeni təyyarələr, helikopterlər alınır, aeroportlar modernləşdirilir, dəmir yolu yükdaşımalarının həcmi artır, yeni tankerlər və quru yük gəmiləri istifadəyə verilir, yol tikintisi inkişaf edir. Azərbaycan Şərq-Qərb və Şimal-Cənub nəqliyyat dəhlizləri layihələrinin reallaşdırılmasında mühüm rol oynayır.

2017-ci il bir sıra yeni layihələrin iştirakçısı kimi Azərbaycan Mühəndislik Akademiyası üçün iqtisadiyyatda artımın təmin edilməsi, iri infrastruktur layihələrinin həyata keçirilməsi, genişmiqyaslı regional və beynəlxalq sammitlərin keçirilməsi ilə əlamətdar və səmərəli il olub.

Akademiyada sənaye innovasiya texnologiyalarının tətbiqi sahəsində ayrı-ayrı müəssisə və birliklərin sifarişi ilə təcrübə üçün əhəmiyyətli məsələlər həyata keçirilir. Məsələn, "Aqreqat" İstehsalat Birliyinin sifarişi ilə gücü 2000 vatta qədər olan aviasiya qızdırıcıları üçün termostabilizasiya və qəza ayırma qurğusu yaradılıb. Azərbaycan Mühəndislik Akademiyası çərçivəsində "İqlim" elm-istehsalat müəssisəsinin sifarişi ilə çoxdamarlı sıxacların avtomatik yoxlanması və sınaqları üçün daha mükəmməl qurğunun yaradılması başa çatdırılıb. Bu qurğu sıxacların prinsipial sxemə uyğunluğuna avtomatik nəzarət, rabitəsiz elektrik dövrələrinin izolyasiya müqavimətinin yoxlanması, idarəedici proqram və fərdi kompüter vasitəsilə onların elektrik möhkəmliyinin sınaqdan keçirilməsi üçün nəzərdə tutulub.

Suyun ilkin tərkibi mürəkkəb və çox çirklənmiş olduğu yaşayış məntəqələri üçün içməli suyun təmizlənməsi məqsədilə sutkalıq məhsuldarlığı 36, 60 və 100 tona bərabər olan modul qurğuları yeni avtomatik idarəetmə bloku yaradılıb. Qurğu modulun işini məsafədən, simsiz müşahidə və idarə etməyə imkan verir. İndiyə qədər bu layihə əsasında yaşayış məntəqələri üçün içməli suyu təmizləyən modul tipli 260 konteyner hazırlanıb.

Aeroportlar zonasında uçma-enmə zolağının sərhədlərindən keçmək niyyətində olan yerüstü nəqliyyat vasitələrinin icazəsiz daxil olması kimi potensial təhlükənin qarşısının alınması sistemi yaradılıb və sınaqdan keçirilib. Həmçinin sistemin işləyən nümunəsi hazırlanıb və sınaqdan keçirilib. Nəqliyyat sistemlərinin intellektual idarəetmə kompleksinin yaradılması üzrə iş aparılır.

Akademiyanın alim və mühəndisləri neft-kimya texnologiyaları sahəsində neft-qaz mədənlərinin tərkibində hidrogen-sulfid və karbon qazı olan lay sularında metalın müdafiəsi üçün korroziya ingibitorları yaradıblar. Bu ingibitorların yaradılması zamanı neft-kimya sintezi üçün xammal mənbələri kimi təbii və sintetik üzvi turşulardan istifadə edilib. Tərkibində karbon qazı çox olan lay suları şəraitində metalı qorumağa imkan verən çoxfunksiyalı və yüksək səmərəli korroziya ingibitorları alınıb.

Neft-kimya texnologiyaları sahəsində alimlərimizin daha bir orijinal işi neftin reoloji xassələrinin yaxşılaşdırılması üçün mərkəzində dördlü ammonium makrotsiklik birləşmələrin sintezi üsuludur. Bu, ağır neftlərin özlülüyünü aşağı salmağa və neft qatranlarının miqdarını azaltmağa imkan verəcək.

Akademiyanın alimləri tərəfindən aviasiya, təbabət, kənd təsərrüfatı və ölkə iqtisadiyyatının digər sahələrində istifadə edilən xüsusi ozonlaşdırma texnologiyası və müvafiq avadanlıq yaradılıb.

Akademiya aviadaşımalar zamanı infeksion xəstəliklərin yayılması riski ilə əlaqədar uçuşların təhlükəsizliyi problemi üzərində "Azərbaycan Hava Yolları" QSC ilə birlikdə fəal iş aparır. İnsanın və ətraf mühitin təhlükəsizliyi sahəsində sanitar-epidemioloji tələblərə və normalara cavab verən kompozision dielektrik izolyasiyalı ikibaryerli ozonatorlar işlənib hazırlanıb və yaradılıb. Onların orijinallığı və analoqlarla müqayisədə yüksək keyfiyyəti patentlər və sertifikatlarla təsdiq edilib. Hazırda Akademiyada məxsusi olaraq işlənib hazırlanmış, İKAO-ya və Dünya Səhiyyə Təşkilatına təqdim olunmuş proqram əsasında ozondan aviasiyada istifadənin hərtərəfli öyrənilməsi məqsədilə xüsusi elmi-texniki istiqamətdə işlər aparılır.

Kənd təsərrüfatının inkişafı sahəsində ölkənin aqrar təhlükəsizliyinin təmin edilməsi məqsədilə aqrar-sənaye sektorunda quraqlığa davamlı kənd təsərrüfatı bitkilərinin yaradılması, Azərbaycan Respublikasının aran və dağətəyi quraqlıq zonalarında və dağ yamaclarında eroziyaya qarşı mübarizə və sudan istifadə proqramlarını xüsusi qeyd etmək lazımdır.

Azərbaycan Mühəndislik Akademiyası Kənd Təsərrüfatı Nazirliyinin Elmi-Tədqiqat Bitki Mühafizəsi İnstitutu ilə birlikdə çoxillik fasilədən sonra ilk dəfə olaraq pambıq əkini sahələrində rekord dərəcədə yüksək - 200 min ton məhsul almağa müvəffəq olub. Bu, əvvəlki ilin müvafiq göstəricisindən 3 dəfə çoxdur.

Buğda, qarğıdalı, arpa, pambıq, şəkər çuğunduru toxumlarının səpinqabağı stimulyasiyası texnologiyası, çayın fermentasiya üsulları yaradılıb, 2016-2017-ci illərdə yüksək məhsul alınıb. Bizim Akademiyanın mütəxəssisləri tərəfindən taxıl anbarlarının dezinfeksiyası və səpinqabağı işlənməsi üçün ozonatorlar tətbiq edilməsi nəticəsində dənli bitkilərin qorunub saxlanması, onlardan həm qida məqsədilə, həm də genetik fond kimi istifadə edilməsi üçün ekoloji şərait təmin olunub. Toxum partiyasının ozon vasitəsilə zərərsizləşdirilməsinin effektivliyi müvafiq kimyəvi vasitələrlə zərərsizləşdirmə ilə müqayisəli şəkildə qiymətləndirilib. Məlum olub ki, toxumların ozon-hava qarışığı ilə işlənməsi daha yüksək məhsuldarlığı təmin edir.

Azərbaycan bu istiqamətdə Rusiya Federasiyası ilə birlikdə kənd təsərrüfatının inkişafına dair dövlətlərarası proqram hazırlayır. Bizim Akademiya N.İ.Vavilovun genetik resurslara dair elmi irsinin inkişaf etdirilməsi üzrə birgə iş aparır.

Bütün mövcud layihələrə ölkənin aparıcı elmi potensialı - əsasən Milli Elmlər Akademiyasında, ölkənin qabaqcıl ali məktəblərində və onun intellektual innovasiya klasterində, Azərbaycan Mühəndislik Akademiyasının da aid olduğu elmi mərkəzlərdə və təşkilatlarda təmsil olunmuş qüvvələr cəlb olunur.

Milli Aviasiya Akademiyasında hər il aviakosmik problemlərin həllində gənclərin kreativ potensialının üzə çıxarılmasına və inkişaf etdirilməsinə həsr olunmuş "Fevral qiraətləri" keçirilir. Bu tədbirlərin təşkilatçıları Təhsil Nazirliyi, "Azərbaycan Hava Yolları" QSC, Milli Aviasiya Akademiyası, Azərbaycan Mühəndislik Akademiyası və "Azərkosmos" ASC-dir. "Fevral qiraətləri - 2018" çərçivəsində "Aviakosmik problemlərin həllində gənclərin yaradıcı potensialı" mövzusunda III beynəlxalq elmi-praktiki konfrans keçirilib. Konfransın işində Rusiya, ABŞ, İngiltərə və Qazaxıstandan gələn qonaqlar iştirak ediblər. Bu konfrans gənclərin intellektual potensialından aviakosmos sahəsində mövcud elmi problemlərin obyektiv və hərtərəfli araşdırılmasında istifadə imkanlarının artırılması istiqamətində mühüm addımdır. Gənclər arasında maraqlı elmi diskussiyalar və müzakirələr, riyaziyyat və fizika, müasir informasiya-kommunikasiya texnologiyaları sahəsində aparıcı mütəxəssislərin ustad dərsləri, "dəyirmi masalar" və digər tədbirlər keçirilir. üç gün davam edən konfransda 8 seksiya çərçivəsində 120-dən çox məruzə dinlənilib.

Bizim mühəndislərin fikrincə, təhsil sahəsində əsas resurs məhz istedadlı və hazırlıqlı insanlar olmalıdır. Kadr potensialı kimi əsasən Milli Aviasiya Akademiyası və Azərbaycanın digər aparıcı ali məktəbləri nəzərdə tutulub. Akademiyanın üzvləri Azərbaycanın ali məktəblərində təhsilin keyfiyyətinin idarə edilməsi və yüksək ixtisaslı, o cümlədən mühəndis profilli mütəxəssislər hazırlanması üzrə iş aparırlar. Yeni iqtisadiyyata keçid problemləri, regionların innovasiyalı inkişaf üçün aparıcı texnoloji parklar kimi təsdiq olunması, bu məsələnin həllində ali məktəbin rolu və iştirakı birinci dərəcəli vəzifələr hesab edilir.

Beynəlxalq əməkdaşlıq sahəsində Azərbaycan Mühəndislik Akademiyası Beynəlxalq Mühəndislik Akademiyası ilə birlikdə Qırğızıstanın və Sloveniyanın mühəndislik akademiyaları ilə üçtərəfli müqavilə üzrə fəal iş aparır.

Bir sıra ölkələrin mühəndislik akademiyaları ilə, xüsusən Beynəlxalq Mühəndislik Akademiyası, Rusiya, Özbəkistan, Ukrayna, Belarus, Sloveniya mühəndislik akademiyaları ilə sıx əməkdaşlığı davam etdiririk. İslam Ölkələri Mühəndislik İnstitutları Federasiyasına (İÖMİF) daxil olan Azərbaycan Mühəndislik Akademiyası bu qurum və onun üzvləri ilə əməkdaşlığı genişləndirir.

"Azərbaycan Mühəndislik Akademiyasının xəbərləri" adlı beynəlxalq elmi-texniki jurnal artıq doqquz ildir ki, Azərbaycanın və xarici ölkələrin elmi həyatında fəal iştirak edir. "Xəbərlər"də müasir dünya standartlarından istifadə edilməklə elektron formatda ingilis dilində məqalələrə ayrıca annotasiyalar dərc edilir, bu materiallar kommersiya məlumat bazalarından birinin köməyi ilə yayılır, xarici analitik bazaya (SCOPUS və Clarivate Analitics) keçidlə indeksləşdirmə və sitatgətirmə işləri görülür.

"Azərbaycan Mühəndislik Akademiyasının xəbərləri" jurnalı internet şəbəkəsində inteqrasiya edilmiş elmi resurs hüquqlarının sahibidir. Bu resursa Rusiyanın Elmi Sitatlar İndeksi (RESİ), elektron elmi nəşrlər, elmi nəşrlərin informasiya məlumat bazaları, habelə elmi nəşrlərin elektron versiyalarına fərdi abunə servisi daxildir. Jurnalın reytinqi RESİ-nin impakt-faktor əmsalı ilə təyin olunur. Jurnalın tammətnli elektron versiyası Rusiya Universal Elmi Elektron Kitabxanasının məlumat bazasında (www.elibrary.ru) yerləşdirilir.

Bizim Akademiyanın üzvləri il ərzində çoxsaylı konqreslərdə, beynəlxalq və regional elmi forumlarda, simpozium və konfranslarda iştirak ediblər. Alimlərimiz və mühəndislərimiz Azərbaycan iqtisadiyyatının davamlı inkişaf strategiyasının reallaşdırılması və təkmilləşdirilməsi üçün xüsusi fəallıq göstərirlər.

**Arif Paşayev**
**Azərbaycan Mühəndislik Akademiyasının prezidenti, akademik**

# SAHİBKARLIĞIN İNKİŞAFI DÖVLƏT SİYASƏTİNİN ƏSAS PRİORİTETLƏRİ SIRASINDADIR

***Dövlət başçısının rəhbərliyi ilə aparılan dərin islahatlar azad və ədalətli rəqabət mühitinin yaradılmasını təmin edir***

*Azərbaycan Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə ölkəmiz hazırda inkişafının yeni mərhələsindədir. Əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulmuş iqtisadi inkişaf strategiyasının uğurla həyata keçirilməsi ölkəmizin iqtisadi potensialının davamlı surətdə artırılması üçün lazımi şərait yaratmış, ölkəmizdə dayanıqlı və sabit iqtisadi sistemin formalaşdırılmasını təmin etmişdir. Respublikamızda sahibkarlığın inkişaf etdirilməsi istiqamətində reallaşdırılmış kompleks və sistemli tədbirlər, bu sahəyə dövlət dəstəyinin gücləndirilməsi özəl sektorun təkcə Azərbaycan üçün ənənəvi sferalarında deyil, həm də milli iqtisadiyyatımızın yeni hesab edilə biləcək sahələrində hərtərəfli inkişafı daha da sürətləndirmişdir. Bütün bunların nəticəsidir ki, hazırda özəl sahibkarlıq ölkə iqtisadiyyatının aparıcı qüvvəsinə çevrilmişdir.*

Dünyada formalaşan yeni iqtisadi şəraitdə Azərbaycanın sabit və davamlı inkişafını təmin edəcək Yeni Strateji Yol Xəritəsi çərçivəsində həyata keçirilən islahatlar ölkəmizin iqtisadi potensialının gücləndirilməsi, infrastruktur təminatının yaxşılaşdırılması, respublika əhalisinin rifah halının yüksəldilməsi baxımından böyük əhəmiyyətə malikdir. Odur ki, ölkəmizin zəngin iqtisadi potensialının istifadə effektivliyinin yüksəldilməsi, qeyri-neft sektorunun inkişaf etdirilməsi, məşğulluğun təmin olunması nöqteyi-nəzərdən özəl sahibkarlığın rolu böyükdür. Təsadüfi deyil ki, cənab İlham Əliyev ölkəmizdə sahibkarlar üçün əlverişli biznes, investisiya, azad və ədalətli rəqabət mühitinin yaradılmasına həmişə böyük önəm vermiş, dəstəyini heç zaman əsirgəməmişdir.





Dövlət başçısı tərəfindən həyata keçirilən daxili və xarici siyasətə hər zaman sadiq olan, cəmiyyətimizin fəal hissəsini təmsil edən sahibkarlar əmindirlər ki, növbəti yeddi ildə də cənab İlham Əliyevin rəhbərliyi altında milli iqtisadiyyatımızın inkişafının Azərbaycan modeli öz böyük nailiyyətləri sayəsində tərəqqinin yeni zirvəsinin möhkəm təməli olacaqdır.

Azərbaycanda özəl sahibkarlıq üçün yaradılan şəraitdən bəhrələnən çoxsaylı müəssisələrdən biri də təsisçisi olduğum "Bakı İnşaat Sənaye" ASC-dir. Müəssisə öz fəaliyyətini malik olduğu ISO 9001 beynəlxalq keyfiyyət standartı üzərində qurub. Sənayenin əsas sahələrindən birini təşkil edən ağır metallurgiya sferasında fəaliyyət göstərən müəssisəmizdə əsasən ixracyönümlü məhsullar istehsal edilir. Bura müxtəlif ölçülü şveller, künclük, kvadrat və zolaqlar, boru, profil çeşidləri daxildir. Eyni zamanda, ölkə bazarında böyük tələbat duyulan bu kimi digər metal məmulatlarının istehsalı da həyata keçirilir. Hazırlanan bütün məhsul növləri həm də Azərbaycan Respublikası Milli Sertifikatlaşdırma sisteminin uyğunluq Sertifikatlarına malikdir. Səhmdar Cəmiyyətimiz xaricə yüksək keyfiyyətə malik rəqabətqabiliyyətli satış qiymətləri ilə mal ixrac etməklə hazırda Gürcüstan bazarında liderlik mövqeyinə malikdir. Son dövrdə müəssisəmizin ixrac əməliyyatlarında 35 faizə qədər artım qeydə alınmışdır ki, bu da təkcə son dörd ayda respublikamızın valyuta daxilolmalarında müəyyən artım deməkdir.

Azərbaycan Prezidenti tərəfindən həyata keçirilən sosial-iqtisadi siyasətə uyğun olaraq, sahibkarlıq mühitinin daim yaxşılaşdırılması, infrastrukturun modernləşdirilməsini hədəfləyən yeni-yeni layihələrin reallaşdırılması, dövlət və sahibkarlıq arasında münasibətlərin inkişaf etdirilməsi nəticəsində milli iqtisadiyyatımızın strukturunda özəl sahibkarlığın xüsusi çəkisi artmaqda davam edir. Özəl sektora hərtərəfli dövlət qayğısının daha bir bariz nümunəsi kimi "İnvestisiyaların təşviqi ilə bağlı əlavə tədbirlər haqqında" cənab Prezidentin 2016-cı ilin yanvarında 745 saylı Fərmanına uyğun olaraq Azərbaycan Respublikası Vergi Məcəlləsinin və "Gömrük tarifi haqqında" Azərbaycan Respublikası Qanununun müvafiq maddələrilə müəyyən olunmuş güzəştlərin tətbiq olunması xüsusilə qeyd edilməlidir. 12 oktyabr 2017-ci ildə "Bakı İnşaat Sənaye" Açıq Səhmdar Cəmiyyətinə yuxarıda qeyd etdiyim güzəştləri əldə etmək hüququ verən İnvestisiya Təşviqi Sənədi təqdim olunmuşdur. Qeyri-neft sektorunun inkişafında, özəl sahibkarlıq fəaliyyətinin və investisiya yatırımlarının stimullaşdırılması istiqamətində həmin güzəştlərin təqdim edilməsi böyük önəm daşıyır. Buna görə biz bir daha cənab Prezidentə öz dərin təşəkkürümüzü bildiririk.

Biz gözəl başa düşürük ki, xalqımızın xoşbəxt gələcəyi, Azərbaycanın dövlətçilik ənənələrinin yaşaması məhz Heydər Əliyev siyasətinin alternativsizliyi, cənab İlham Əliyevin qətiyyəti və iradəsi ilə bağlıdır.



Azərbaycanda həyata keçirilən köklü islahatların başlıca vəzifəsi—ölkəmizin iqtisadi mənafelərinə cavab verən milli iqtisadiyyatın şaxələndirilməsi, qeyri-neft sektorunun və ixracyönümlü istehsal sahələrinin daha da inkişaf etdirilməsidir. Bu baxımdan respublikamızda azad sahibkarlığın inkişafı, sağlam rəqabət mühitinin yaradılması üçün dövlət tərəfindən bütün zəruri tədbirlər həyata keçirilir.

Azad sahibkarlığın, sağlam rəqabətin qarşısını ala biləcək bütün maneələrin, o cümlədən inhisarçılıq meyillərinin aradan qaldırılması istiqamətində aparılan işlər hər zaman dövlət başçısının diqqət mərkəzində olub. Cənab İlham Əliyev bütün sahələrdə inhisarçılığa qarşı mübarizənin daha da gücləndirilməsinin vacibliyini xüsusilə vurğulayıb: **"Azərbaycanın bazarı demək olar ki, kifayət qədər məhduddur. Əgər hansısa bir böyük istehsalçı yaranırsa,—biz istəyirik, maraqlıyıq ki, həm orta və kiçik sahibkarlıq artsın, həm böyük şirkətlərimiz olsun və onlar da güclənsin, dövlət tərəfindən verilən dəstək, siyasi, iqtisadi dəstək artıq böyük şirkətlərin yaranmasına xidmət göstərir,—ancaq, eyni zamanda, böyük şirkət istər-istəməz inhisarçıya çevrilir, bəzi hallarda öz maraqlarının təmin olunması üçün qəbuledilməz addımlar atır. Belə olan halda inhisarçılığa qarşı mübarizə həm idxalda, həm daxili istehsalda daha da güclü olmalıdır və elə etməliyik ki, xoşagəlməz hallara yol verilməsin".**

Göründüyü kimi, cənab Prezident iqtisadiyyatımızın bütün sahələrində azad və ədalətli rəqabəti, milli iqtisadiyyatımızın dayanıqlı inkişafının təmin edilməsində müstəsna rola malik özəl sahibkarlığın fəaliyyətini məhdudlaşdıra biləcək bütün amillərin, xüsusilə də inhisarçılıq meyillərinin qarşısının alınmasında qətiyyətli olduğunu nümayiş etdirir: **"Həm idxalda, həm də ki, daxili istehsalda inhisarçılığa qarşı mübarizə daha da güclü aparılmalıdır".**

Odur ki, yalnız dövlət başçısının həyata keçirdiyi siyasət çərçivəsində öz işini quranlar Azərbaycana fayda verə bilər. Yalnız bu halda onların fəaliyyəti milli iqtisadiyyatımızın inkişaf etdirilməsinə, yeni iş yerlərinin açılmasına, Azərbaycanda rəqabətqabiliyyətli və ixracyönümlü məhsulların çeşidinin genişləndirilməsinə, ölkəmizə yeni investisiyaların cəlb olunmasına, bir sözlə—dövlət başçısı cənab İlham Əliyevin həyata keçirdiyi iqtisadi siyasətə, xalqımıza xidmət etmiş olacaqdır.

Azərbaycan iqtisadiyyatı ildən-ilə möhkəmlənir, onun daxilində keyfiyyət dəyişiklikləri baş verir, respublikamızda vətəndaş həmrəyliyi güclənir, sabitlik hökm sürür. Bütün bunlar cənab İlham Əliyevin rəhbərliyi altında ölkəmizdə aparılan düşünülmüş dövlət siyasəti nəticəsində mümkün olmuşdur. Dövlət başçısı çox düzgün qeyd etmişdir ki, ölkəmiz bu gün əsl sabitlik adasıdır: **"Dünyada təhdidlər artır, münaqişələr alovlanır, Azərbaycan isə sabitlik, inkişaf adasıdır".** Bu inkişafı və sabitliyi qorumaq hər birimizin borcudur.

**Loğman ZÜLFÜQARLI,**
**"Bakı İnşaat Sənaye" ASC-nin təsisçisi.**

# AzMİU-nun müəllimlərinə Kembric Universitetinin sertifikatları verilib

Azərbaycan Memarlıq və İnşaat Universiteti (AzMİU) təhsilin beynəlxalq standartlara uyğunlaşdırılması, universitet müəllimlərinin ingilis dilində dərs demək səviyyələrinin təkmilləşdirilməsi və inkişaf etdirilməsi yönümündə ardıcıl tədbirlər görür.

Bu məqsədlə 2017-ci ilin sentyabr ayından başlayaraq, AzMİU-nun ingilis bölməsində dərs deyən müəllimləri Cambridge EMİ kursu üzrə təhsilə başlayıblar. 11 müəllim 7 ay ərzində universitetdə müasir standartlara uyğun akademik ingilis dili üzrə 8 modullu kursu uğurla tamamlayıb. Eyni zamanda onlar beynəlxalq Cambridge EMİ skills sertifikatını əldə ediblər. Qeyd etmək lazımdır ki, EMİ skills proqramı ali təhsil müəssisələrində ingilis dilinin təkmilləşdirilməsi məqsədi ilə yaradılıb.

Lester Universitetinin İngilis dili üzrə təhsil şöbəsinin direktoru Philip Horspool sertifikat alan müəllimlərlə görüşüb, serifikatları təqdim edib və onları maraqlandıran sualları cavablandırıb.

**Ramiz YUSİFLİ,**
**"Respublika".**

*Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının 100 illiyi*

# Müsəlman Şərqinin ilk demokratik və hüquqi dövləti

## *Azərbaycan Xalq Cümhuriyyəti dövründə əsası qoyulmuş mütərəqqi ədliyyə və məhkəmə-hüquq sistemi bu gün də dinamik inkişaf edir*

**Hər bir xalqın istiqlal, azadlıq istəyi onun bu ideallara qovuşmaq əzmi ilə qərarlaşır və real məzmun kəsb etməyə başlayır. Müsəlman Şərqində ilk demokratik, hüquqi və dünyəvi dövlətin məhz Azərbaycanda elan olunması, yüksək sosial-mədəni səviyyəyə, iqtisadi tərəqqiyə, vətəndaş cəmiyyətinin formalaşmasına xidmət edən çoxşaxəli islahatların məhz bu dövlətdə praktik həyata vəsiqə alması xalqımızın zəngin mənəvi aləmə, yüksək milli qürura, yenilikçi düşüncə tərzinə malik olmasının parlaq təcəssümüdür.**

Bu günlərdə yaranmasının 100-cü ildönümünü böyük coşqu ilə qeyd etdiyimiz Azərbaycan Xalq Cümhuriyyətinin hökuməti ilk gündən müstəqilliyi qoruyaraq inkişaf etdirməyi, səmərəli sosial-iqtisadi islahatların həyata keçirilməsi yolu ilə xalqın firavan həyat tərzinə nail olmağı, hər bir fərdin qanuni maraq və mənafeyinin müdafiəsində dayanmağı qarşıda mühüm vəzifələr kimi müəyyənləşdirmişdi.

1918-ci il mayın 28-də Azərbaycan Xalq Cümhuriyyətinin yaranması ölkəmizin çoxəsrlik tarixinin, sosial-iqtisadi və mədəni inkişafının, habelə əsrin əvvəlində başlamış, Rusiya imperiyasının süqutu ilə daha da genişlənən milli azadlıq mübarizəsinin məntiqi yekunu olmuşdur. Həmin dövrdə müstəqil dövlətçilik ənənələrinin formalaşdırılması istiqamətində həyata keçirilən tədbirlər Azərbaycan xalqının gələcək yaşam fəlsəfəsinin və inkişaf yolunun müəyyənləşdirilməsi baxımından mühüm əhəmiyyət kəsb etmişdir. Respublikada demokratik hüquq və azadlıqların bərqərar olması, etnik və dini mənsubiyyətindən asılı olmayaraq bütün vətəndaşlara bərabər hüquqların verilməsi, Şərqdə ilk dəfə olaraq qadınların seçki hüququnun tanınması, Azərbaycan dilinin dövlət dili elan edilməsi, təhsil və mədəniyyətin inkişafına qayğı göstərilməsi, Bakı Dövlət Universitetinin təsis edilməsi, milli ordunun, hüquq-mühafizə, təhlükəsizlik strukturlarının formalaşdırılması, mətbuatın inkişafı Azərbaycan Xalq Cümhuriyyətinin qısamüddətli mövcudluğunun parlaq uğurları kimi xatırlanır.

Mövcudluq tarixi ərzində son dərəcə keşməkeşli, mürəkkəb və şərəfli yol keçərək xalqa və dövlətə layiqli xidməti özünün ali məqsədi sayan milli ədliyyə orqanlarının yaranma tarixi də Azərbaycan Xalq Cümhuriyyəti dövrünə təsadüf edir. Milli hökumətə rəhbərlik edən ziyalılar hələ o dövrdə hüquqi dövlətin formalaşdırılması baxımından ədliyyə orqanlarının yaradılmasını vacib saymış, bu istiqamətdə əməli tədbirlər həyata keçirmişlər. Təsadüfi deyildir ki, Azərbaycanın dövlət müstəqilliyinin elan olunduğu bir tarixi gündə - 28 may 1918-ci ildə Ədliyyə Nazirliyi təsis edilmiş, dövrünün nüfuzlu ictimai-siyasi xadimlərindən olmuş Xəlil bəy Xasməmmədov bu vəzifəyə təyin olunmuşdur. Nazirlər Şurasının qərarı ilə 1918-ci il oktyabr ayının 1-də Bakı dairə məhkəməsinin və onun tərkibində prokurorluğun fəaliyyəti bərpa edilmiş, noyabrın 14-də Azərbaycan məhkəmə palatasının Əsasnaməsi, 22-də isə Ədliyyə Nazirliyinin Əsasnaməsi və ştat cədvəli təsdiq olunmuşdur.

Cəzaçəkmə yerlərində aparılan işin ədalət mühakiməsinin həyata keçirilməsində əhəmiyyəti nəzərə alınaraq Hökumətin 1919-cu il 11 avqust tarixli qərarı ilə əvvəllər Daxili İşlər Nazirliyinin tərkibində olan həbsxanalar Ədliyyə Nazirliyinin tabeliyinə verilmiş, nazirliyin təşəbbüsü ilə "İstintaq hissəsinin quruluşu və gücləndirilməsi haqqında", "Məhkəmə idarəsi sahəsində vəzifələrə namizədlər haqqında", "Azərbaycan andlı iclasçılar məhkəməsinin təsis edilməsi haqqında", ADR-in yaranmasından il yarım keçməsi münasibətilə ümumi amnistiya haqqında və digər qanunlar parlamentin müzakirəsinə çıxarılmışdır.

Cümhuriyyətin məlum səbəblər üzündən süqutundan sonra Ədliyyə Nazirliyinin mükəmməl struktur kimi əsaslı surətdə formalaşdırılması, ədliyyə işinin təkmilləşdirilməsi, onun gələcək inkişafı üçün əlverişli şəraitin yaradılması məhz 70-ci illərə - ümummilli lider Heydər Əliyevin respublikamıza birinci rəhbərliyi dövrünə təsadüf edir. 27 oktyabr 1970-ci ildə Azərbaycan SSR Ali Sovetinin qərarı ilə Ədliyyə Nazirliyi təsis olunaraq sabit fəaliyyəti təmin edilmiş, nazirlik məhkəmə orqanlarına təşkilati rəhbərliyi həyata keçirmiş, əhaliyə hüquqi yardımı yaxşılaşdırmış, notariat fəaliyyətinin və məhkəmə ekspertizalarının aparılmasını təmin etmiş, ümumiyyətlə ədliyyə işi təkmilləşdirilərək onun gələcək inkişafı üçün əlverişli zəmin yaradılmışdır.

Ötən əsrin 70-80-ci illərində formalaşmış möhkəm iqtisadi-siyasi, hüquqi, mədəni-intellektual zəmin üzərində 1991-ci ilin oktyabrında dövlət müstəqilliyini bərpa edən Azərbaycan ilk illərdə ciddi siyasi böhran və məhrumiyyətlərlə üzləşmiş, hüquqi, demokratik dövlətə qovuşmaq arzusunu reallaşdıra bilməmişdir. 1993-cü ilin iyun ayınadək respublikada hərc-mərclik, xaos və anarxiya mühiti, hakimiyyət boşluğu hökm sürmüş, insanların təhlükəsiz yaşamaq kimi fundamental hüququ pozulmuşdur. Bu acınacaqlı vəziyyətin aradan qaldırılması yalnız ulu öndər Heydər Əliyevin xalqın istəyi ilə 1993-cü ilin iyununda hakimiyyətə qayıdışından sonra mümkün olmuşdur.

1995-ci ildə ümummilli liderin rəhbərliyi ilə hazırlanaraq qəbul edilmiş ilk milli Konstitusiya demokratik quruluşun və hüquqi dövlətin möhkəm təməlini qoymuşdur. Hüquqi islahatlara müstəsna əhəmiyyət verən ulu öndər Hüquqi İslahatlar Komissiyasına rəhbərliyi bilavasitə üzərinə götürərək bu islahatların mütəşəkkil və sürətli aparılmasını təmin etmişdir. Qısa müddət ərzində ölkəmizin bu günü və gələcəyi naminə son dərəcə vacib, əhəmiyyətli, habelə hüquq sisteminin mahiyyətini müəyyən edən yeni qanun və məcəllələr qəbul edilmişdir.

Bu mərhələdən ictimai həyatın digər sahələrində olduğu kimi, ədliyyə və məhkəmə-hüquq sistemində də köklü islahatların reallaşdırılması istiqamətində ardıcıl tədbirlər həyata keçirilmişdir. Ümummilli lider Heydər Əliyev tarixi ənənələri bərpa edərək ədliyyə orqanlarına yüksək diqqət və qayğı ilə yanaşmış, bu sahədə yeni dövrün tələblərindən irəli gələn islahatların aparılmasını təmin etmişdir. Böyük strateqin 11 noyabr 2000-ci il tarixli sərəncamı ilə ədliyyə işçilərinə yüksək etimad göstərilərək Azərbaycan Xalq Cümhuriyyəti Ədliyyə Nazirliyinin Əsasnaməsinin təsdiq edildiyi tarix - 22 noyabr Ədliyyə işçilərinin peşə bayramı günü elan olunmuşdur.

Ümumilikdə, 1993-2003-cü illərdə aparılmış islahatlar nəticəsində Konstitusiya Məhkəməsi təsis olunmuş, 2000-ci ildən yeni, əvvəlki məhkəmə sistemindən köklü surətdə fərqlənən və insan haqlarının müdafiəsinə daha etibarlı təminat verən üçpilləli müstəqil məhkəmə sistemi fəaliyyətə başlamışdır. Həmin vaxtdan etibarən keçmiş sovet respublikaları arasında, demək olar ki, ilk dəfə Azərbaycanda həbs və insan hüquqlarını məhdudlaşdıran digər prosessual məcburiyyət tədbirlərinin tətbiqi məhkəmələrin müstəsna səlahiyyətinə aid edilmişdir. Həmçinin, məhkəmələr üzərində prokurorluq və ədliyyə orqanlarının nəzarəti ləğv olunmuş, demokratik məhkəmə nəzarəti institutu formalaşdırılmışdır.

2000-ci ildə dövlətçilik tariximizdə ilk dəfə olaraq hakimlər şəffaf prosedurlar əsasında, o cümlədən test üsulu ilə imtahanla seçilmiş, nəticədə hakim korpusunun 60 faizi təzələnmişdir. Ümummilli lider Heydər Əliyev sonrakı mərhələdə də ölkə həyatının bütün sahələrində çevik və işlək mexanizmlər üzərində çoxşaxəli islahatları təmin etmişdir. Hüquqa və ədalətə söykənən mülki cəmiyyətin formalaşdırılması üçün, ilk növbədə, milli qanunvericiliyin Avropa standartlarına uyğunlaşdırılması prosesi davam etdirilmişdir. 2002-ci il avqustun 24-də keçirilən ümumxalq səsverməsi ilə (referendum) Azərbaycan Respublikası Konstitusiyasına edilmiş əlavə və dəyişikliklərin bir qrupu da məhz məhkəmə hakimiyyətinin fəaliyyəti ilə bağlı olmuşdur.

Ulu öndər Heydər Əliyevin şəxsiyyət kimi böyüklüyü həm də əsasını qoyduğu siyasəti yeni dövrün tələblərinə uyğun davam etdirə biləcək qüdrətli lider və etibarlı davamçını yetişdirməsindədir. Ədalət mühakiməsinin səmərəsinin və məhkəmə hakimiyyətinin müstəqilliyinin artırılmasına xüsusi diqqət yetirən ulu öndərin layiqli siyasi varisi dövlət başçısı cənab İlham Əliyevin iradəsi ilə məhkəmə sisteminin modernləşməsi prosesi cəmiyyətin inkişafına adekvat olaraq uğurla davam etdirilir. Məhkəmələrin işinin təkmilləşdirilməsi və beynəlxalq tələblərə uyğunlaşdırılması məqsədilə 2004-cü ilin dekabrında "Məhkəmə-Hüquq Şurası haqqında" yeni qanun qəbul olunmuş, "Məhkəmələr və hakimlər haqqında" qanuna bir sıra mütərəqqi dəyişikliklər edilmişdir.

Dövlət başçısının 19 yanvar 2006-cı il tarixli "Azərbaycan Respublikasında məhkəmə sisteminin müasirləşdirilməsi və "Azərbaycan Respublikasının bəzi qanunvericilik aktlarına dəyişikliklər və əlavələr edilməsi haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Fərmanı mütərəqqi hüquqi islahatlar prosesində keyfiyyətcə yeni mərhələnin başlanğıcı sayıla bilər. Regionların sosial-iqtisadi inkişafı sahəsində həyata keçirilmiş bir sıra təşkilati-hüquqi, sosial tədbirlərin mahiyyətindən irəli gələn bu mühüm fərman əsasında Bakıda, Gəncədə, Sumqayıtda, Şəkidə və Şirvanda apelyasiya məhkəmələri, Naxçıvanda Ağır Cinayətlərə Dair İşlər üzrə Məhkəmə, Bakıda 2 saylı Yerli İqtisad Məhkəməsi, habelə Sumqayıt və Şəkidə yerli iqtisad məhkəmələri (hazırda inzibati-iqtisadi məhkəmələr adlanır) yaradılaraq fəaliyyətə başlamışdır.

Dövlət başçısı İlham Əliyevin 17 avqust 2006-cı il tarixli "Azərbaycan Respublikası məhkəmələri hakimlərinin sayının artırılması və məhkəmələrin ərazi yurisdiksiyasının müəyyən edilməsi haqqında" fərmanı isə hakimlərin sayının 157 ştat artırılmasını nəzərdə tutmaqla, ədalət mühakiməsinin səmərəliliyinin artırılmasına xidmət etmişdir. Bu addımlar sonrakı illərdə də davam etdirilmiş, respublika üzrə hakimlərin sayı 2 dəfədən çox artırılaraq 600 nəfər müəyyən edilmişdir. Hakimlərin seçimi prosesi Hakimlərin Seçki Komitəsi tərəfindən test üsulu ilə - tamamilə obyektiv, şəffaf və demokratik şəraitdə həyata keçirilmişdir. Son illərdə ümumilikdə 300-dən çox hakimliyə namizəd test üsulunda uğur qazanaraq bu vəzifəyə təyin olunmuşdur. Bu prosesin beynəlxalq norma və standartlara tam cavab verdiyi, ədalətli və şəffaf mexanizmlər əsasında reallaşdırıldığı Avropa Şurası və digər beynəlxalq təşkilatlar tərəfindən də etiraf olunmuş, Azərbaycan təcrübəsi digər ölkələrə nümunə, örnək kimi göstərilmişdir.

Son 10 ildə ölkədə 20-dək yeni regional məhkəmənin yaradılması, o cümlədən apelyasiya, ağır cinayətlər və inzibati-iqtisadi məhkəmələrin fəaliyyətə başlaması, məhkəmə aparatı işçilərinin sayının 75 faiz artırılması, hər bir hakimə köməkçi ştatının ayrılması son illər həyata keçirilən islahatların miqyası barədə kifayət qədər real təsəvvürlər formalaşdırır. Bütün bunlarla yanaşı, məhkəmələri əhatə edən vahid internet portalının yaradılması vətəndaşların məhkəmələrə müraciət imkanlarının sadələşdirilməsinə xidmət etməklə, onlara ali, apelyasiya və birinci instansiya məhkəmələri, onların yurisdiksiyası, baxılan işlər və çıxarılan qərarlar, müraciətə əlavə edilməsi zəruri olan sənədlər, qəbul günləri və s. barədə ətraflı məlumat almaq imkanı verir.

Hakimlərin maddi təminatının yaxşılaşdırılması məsələsi də diqqət mərkəzində saxlanılmış, 2000-ci illə müqayisədə onların əməkhaqqı orta hesabla 30 dəfə artırılmış, bütün məhkəmə aparatlarının tərkibi yenidən müəyyən olunmuşdur. Bir müddət əvvəl hakimlərin məvaciblərinin növbəti dəfə artırılması ölkəmizdə müstəqil və şəffaf məhkəmə sisteminin yaradılması istiqamətində həyata keçirilən tədbirlərin mühüm tərkib hissəsidir.

Xatırladaq ki, Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 6 fevral tarixli "Azərbaycan ədliyyəsinin inkişafına dair 2009-2013-cü illər üçün Dövlət Proqramı" isə milli ədliyyə sistemi ilə yanaşı, həm də məhkəmə orqanlarının müasirləşdirilməsi, fəaliyyətinin təkmilləşdirilməsi istiqamətində indiyədək həyata keçirilmiş məqsədyönlü və ardıcıl tədbirlər sisteminin uğurlu davamı olmuşdur. Proqrama əsasən, 2009-2013-cü illərdə məhkəmələrin fəaliyyətini tənzimləyən normativ hüquqi aktlar külliyatının və onların şərhinə dair vəsaitlərin hazırlanması, "Ədliyyə sisteminin müasirləşdirilməsi" layihəsi çərçivəsində məhkəmə fəaliyyətində, o cümlədən işlərin qeydiyyatı və hərəkətində, məhkəmə proseslərinin aparılmasında yeni texnologiyaların tətbiqi, habelə məhkəmələrin maddi-texniki bazasının yaxşılaşdırılması və onlar üçün lazımi iş şəraitinin təmin edilməsi istiqamətində addımlar həyata keçirilmişdir.

Bundan əlavə, Dünya Bankı tərəfindən dəstəklənən "Ədliyyə sisteminin müasirləşdirilməsi layihəsi" çərçivəsində Azərbaycanda xüsusi işlənilmiş və dünyada analoqu olmayan unikal proqram təminatı vasitəsilə 30-dək məhkəmənin yerləşəcəyi müasir bina və komplekslərin layihələri hazırlanmış, respublikamızın müxtəlif bölgələrində inşa olunmuşdur. Yeni inşa olunan məhkəmə binalarında müasir İKT-nin, o cümlədən "Elektron məhkəmə" informasiya sisteminin tətbiqi ötən illərdən başlanmış islahatların uğurlu davamına etibarlı zəmin yaratmışdır. Son illərdə Bakı şəhərinin Yasamal, Sabunçu, Nərimanov, habelə Gəncə şəhərinin Nizami, Gədəbəy, İmişli, Şəki, Qəbələ və Oğuz rayonlarında müasir məhkəmə binaları inşa edilərək istifadəyə verilmişdir.

İnsana xas ən ali duyğulardan olan humanizm hissinin cəza siyasətində öz əksini tapması vacib məsələlərdəndir. Azərbaycan Respublikası Prezidentinin 10 fevral 2017-ci il tarixli "Penitensiar sahədə fəaliyyətin təkmilləşdirilməsi, cəza siyasətinin humanistləşdirilməsi və cəmiyyətdən təcridetmə ilə əlaqədar olmayan alternativ cəza və prosessual məcburiyyət tədbirlərinin tətbiqinin genişləndirilməsi barədə" Sərəncamı bu baxımdan böyük tarixi-mənəvi dəyəri olan mühüm sənəddir. Bu sahədə fəaliyyət göstərən dövlət orqanları üçün bir növ "strateji yol xəritəsi" rolunu oynayan sərəncam penitensiar sahənin inkişafı və cəza siyasətinin humanistləşdirilməsi baxımından bir sıra vəzifələri önə çəkir. Sərəncamla penitensiar müəssisələrin fəaliyyətinin təkmilləşdirilməsi, maddi-texniki bazasının gücləndirilməsi, cəzanı icra edən orqan və müəssisələrdə mövcud nöqsanların aradan qaldırılması, cinayət təqibi və cəzaların icrası sahəsində korrupsiyanı istisna edən şəraitin təmin olunması, müasir texnoloji vasitələrin tətbiqi və cəza siyasətinin humanistləşdirilməsi məqsədilə Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Probasiya Xidməti yaradılmışdır. Yeni xidmətin yaradılmasında məqsəd cəmiyyətdən təcridetmə ilə əlaqədar olmayan cəzaların icrasına səmərəli nəzarətin təşkili və bu sahədə idarəetmənin təkmilləşdirilməsidir.

Xüsusi vurğulamaq lazımdır ki, Azərbaycanda cəzaların icrası siyasətinin təkmilləşdirilməsində, humanizm prinsiplərinin bərqərar olmasında, insan hüquqlarının dövlət qurumları ilə yanaşı, eyni zamanda vətəndaş cəmiyyəti institutları tərəfindən də qorunmasında, bu sahədə faydalı ictimai təşəbbüslərin irəli sürülməsində Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti, UNESCO və İSESCO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın da böyük xidmətləri vardır. İndiyə qədər Mehriban xanım Əliyevanın təşəbbüsü ilə qəbul edilmiş 4 amnistiya aktı layihəsi əsasında on minlərlə məhbus həyatın ən böyük nemətlərindən olan azadlığa qovuşmuşdur.

*Məhkəmə və ədliyyə sistemi hər bir dövlətin, xüsusən də demokratik-hüquqi cəmiyyətin aparıcı qüvvəsi, onurğa sütunudur. Bu gün fəxrlə deyə bilərik ki, zəngin tarixi irs üzərində demokratik, hüquqi və dünyəvi dövlət quruculuğu yolu ilə inamla irəliləyən müstəqil Azərbaycan möhkəm təməllər üzərində qurulmuş və müasir dünya tələbləri səviyyəsində fəaliyyət göstərən məhkəmə və ədliyyə sisteminə malikdir. İnanırıq ki, respublikamızın iqtisadi inkişaf tempinə adekvat olaraq bu sahədə islahatlar uğurla davam etdiriləcək, Azərbaycan inkişaf etmiş ölkələrlə rəqabətə girə biləcək modern ədliyyə və məhkəmə sisteminə malik olacaqdır.*

**Müseyib BAYRAMOV,**
**Kürdəmir Rayon Məhkəməsinin sədri.**

# Kiyev şəhərində Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının 100 illiyinə həsr olunmuş təntənəli bayram tədbiri

Azərbaycan Xalq Cümhuriyyətinin yaradılmasının 100 illiyi münasibətilə ölkəmizin Ukraynadakı səfirliyininin həyətində təşkil olunmuş bayram şənliyində Ukraynanın hökumət və dövlət rəsmiləri, elm və mədəniyyət xadimləri, xarici ölkələrin səfirləri, parlament və media təmsilçiləri iştirak ediblər. Tədbirə qatılanlar ilk öncə səfirliyin həyətində təşkil olunmuş Azərbaycan rəssamlarının əsərlərindən ibarət rəsm sərgisi və cümhuriyyət tarixini özündə əks etdirən guşə ilə tanış olublar.






1918-ci ildə şərqdə ilk dəfə yaradılmış Azərbaycan Demokratik Respublikasının tarixi nailiyyətlərindən söhbət açan Azərbaycanın Ukraynadakı səfiri Azər Xudiyev, cümhuriyyət hökumətinin 100 il bundan öncə qurduğu dövlətçilik ənənələrinin bu gün böyük uğurla davam etdirildiyini vurğulayıb. Ötən əsrin sonlarında 2-ci dəfə dövlət müstəqilliyini əldə edən ölkəmizin ulu öndər Heydər Əliyevin iradəsi və müdrik uzaqgörənliyi ilə böyük inkişaf yolu keçdiyini qeyd edən səfir, son 15 ildə Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə və bölgədə həyata keçirilən qlobal sosial-iqtisadi islahatlardan, Azərbaycanın qərblə şərqin multikultralizm və tolerantlıq mərkəzinə çevrilməsindən bəhs edib. Diplomat Ermənistanın ölkəmizə qarşı yürütdüyü işğalçılıq siyasətindən söz açaraq, hərbi, iqtisadi qüdrətinə görə Cənubi Qafqazın lider dövlətinə çevrilən ölkəmizin öz ərazi bütövlüyünü bərqərar edəcəyini bildirib.

Azərbaycanla Ukrayna arasındakı tarixi dostluq əlaqələrindən söz açan Ukrayna baş nazirinin birinci müavini, iqtisadi inkişaf və ticarət naziri Stepan Kubiv 1918-ci ildə Şərqdə ilk Demokratik Respublika statusunu əldə edən müstəqil Azərbaycan dövlətinin son 25 ildə maddi və mənəvi dəyərlərinə sahib çıxmaqla dünyanın ən inkişaf etmiş ölkələrindən birinə çevrildiyini bildirib. Nazir qeyd edib ki, Azərbaycanla Ukrayna tarixin bütün dönəmlərində bir-birinə dəstək verməklə bu gündə strateji münasibətlərini mehriban dostluq və qardaşlıq telləri üzərində davam etdirir.

Azərbaycan qərblə şərqi birləşdirən nəhəng beynəlxalq layihələrə imza atmaqla dünyada böyük nüfuz sahibinə çevrilib. Azərbaycan gələcəkdə daha böyük uğurlara imza atacağını deyən Stepan Kubiv Ukrayna hökuməti adından başda Prezident İlham Əliyev olmaqla xalqımızı 100 illik müstəqilliyimiz münasibəti ilə təbrik edib.

Çıxışlardan sonra Azərbaycan və Ukraynanın tanınmış incəsənət xadimlərinin ifasında maraqlı konsert proqramı nümayiş etdirilib. "Qafqaz" rəqs qrupunun rəngarəng çıxışları, məşhur Anna və Mariya bacılarının, o cümlədən Azərbaycanın Əməkdar artisti, Tünzalə Ağayevanın şən və həzin mahnıları tədbirə qatılanlara xoş və yadda qalan anlar yaşadıb. Azərbaycanın milli yeməklərinin təqdim olunduğu bayram şənliyi atəşfəşanlıqla başa çatıb. Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi ilə bağlı Ukraynanın aparıcı televiziya kanalları xüsusi reportajlar yayımlayıblar. Azərbaycanın Ukraynadakı səfirliyinin sifarişi ilə Xalq Cümhuriyyətinin 100 illiyi ilə bağlı poçt markası hazırlanıb. Azərbaycan Xalq Cümhuriyyətinin parlament binasının, iclasının, Şərqdə ilk dəfə qadınlara səsvermə hüququ verilən obrazın yer aldığı poçt markaları artıq dövriyyəyə buraxılıb.

**Qədir ASLAN,**
**"Respublika".**

# Müstəqilliyimizi qorumaq hər birimizin borcudur

Xalqımız bir əsrdə iki dəfə müstəqillik əldə etmək şansına malik olmuşdur. Azərbaycan Xalq Cumhuriyyəti o dövrdə Azərbaycanın Çar Rusiyasında baş verən inqilab nəticəsində müsəlman şərqində yaranmış ilk Parlament Respublikası idi. Demokratik Respublikanın paytaxtı əvvəlcə Gəncə, sonra isə Bakı şəhəri olmuşdur. Yarandığı dövrdə azərbaycanlıların kompakt yaşadığı ərazi təxminən 150 min kvadratkilometr olmuşdur. Lakin 1918-ci ildə Azərbaycana məxsus torpaqların bir hissəsində Ermənistan adlanan bir respublika yaradıldı. Bu respublikanın yaranması o dövrdəki bir sıra ermənipərəst dövlətlərin təkidi və tələbi ilə baş tutdu. Beləliklə, Azərbaycan torpaqlarının ərazisi 113.9 min kvadratkilometr oldu. Azərbaycan Xalq Cumhuriyyəti Paris Sülh Konfransının qərarına əsasən, müstəqil dövlət kimi tanınmışdır. Həmin dövrdə Azərbaycanda sivil Avropa nümunəli dövlət idarəçiliyi yaranmışdı. Azərbaycan Xalq Cumhuriyyəti Parlament Respublikası idi. Cümhuriyyət hökumətinin dövlət quruculuğundakı atdığı mühüm addımlardan biri də dövlət rəmzlərinin qəbul edilməsi oldu. 1918-ci ilin iyulun 24-də üzərində aypara və səkkizguşəli ulduz olan bayraq barədə qərar qəbul edildi. Noyabr ayının 9-da isə həmin bayraq üzərində aypara və səkkizguşəli ulduz olan mavi, yaşıl və qırmızı rəngli bayraqla əvəz olunmuşdur. Cumhuriyyətin həyata keçirdiyi digər mühüm addımlardan biri də milli ordunun yaradılması idi. Bu zaman qardaş Türkiyə həmişə olduğu kimi, yenə də Azərbaycana yaxından köməklik göstərdi. O zaman Nuru paşanın rəhbərliyi ilə Gəncədə Xüsusi Azərbaycan korpusu yaradılmışdı. 1920-ci ildə Azərbaycan ordusunda şəxsi heyətin sayı 40 min nəfərə çatmışdı, şəxsi heyətin 10 min nəfəri süvari ordu idi. İlk hərbi nazir Xosrov Paşa bəy Sultanov, sonra general Səməd ağa Mehmandarov, müavini isə general Əliağa Sıxlınski idi.

Həmin dövrdə bununla yanaşı, təhsilin inkişaf etdirilməsi üçün 637 ibtidai, 23 orta ixtisas məktəbi fəaliyyət göstərirdi. Dərslər əsasən ana dilində-türk (Azərbaycan) dilində tədris olunurdu. Pedaqoji kadrların hazırlanması üçün Qori Müəllimlər Seminariyasının Azərbaycan bölməsi Qazax şəhərinə köçürülmüşdü. 1919-cu ildə Bakı Dövlət Universiteti yaradıldı. Həmin ilin noyabr ayının 15-də universitet fəaliyyətə başladı.

Müsəlman şərqində ilk Parlament Respublikası kimi fəliyyətə başlayan müstəqil dövlətin Ədliyyə Nazirliyi də fəaliyyətə başladı. Aslan bəy Səfikürdski ilk nazir təyin olundu. A.Səfikürdski ədliyyə sisteminin təkmilləşdirilməsi istiqamətində mühüm işlər gördü. Bunlardan ən vacibi ədliyyə orqanlarına qəbul olunan əməkdaşların Azərbaycan dilini mükəmməl bilmələri idi, çünki dövlət dili idi. Qabiliyyətli və savadlı azərbaycanlı gənclərin ədliyyə orqanlarına qəbulu diqqət mərkəzində idi. Ədliyyə sahəsində digər vacib islahatlar da həyata keçirilirdi. Həbsxanalardakı dözülməz və acınacaqlı vəziyyətin aradan qaldırılması üçün mühüm qərarlar qəbul olunurdu.

1920-ci ildə Sovet Rus imperiyasının yenidən Azərbaycana təcavüzü nəticəsində xalqımızın əldə etdiyi müstəqillik itirildi. 1991-ci ildə SSRİ süquta uğradıqdan sonra Azərbaycan özünü Xalq Cumhuriyyətinin varisi elan edərək yenidən dövlət müstəqilliyini bərpa etdi. Lakin bu dövrdə Azərbaycana heç bir səriştəsi olmayan naşı insanlar rəhbərlik edirdi. Ölkə öz müstəqilliyini itirmək təhlükəsi ilə üzləşmişdi. Belə bir zamanda Azərbaycan xalqının israrlı təkidi ilə 1993-cü ildə ulu öndər Heydər Əliyevin yenidən hakimiyyətə gəlişi müstəqil Azərbaycanı parçalanmaq təhlükəsindən xilas etdi. Bu gün ölkəmiz sürətlə inkişaf edir. Ümummilli lider ikinci dəfə hakimiyyətə gəlişindən sonra ömrünün qalan 10 ilini müstəqil dövlətimizin qorunub saxlanmasına və inkişafına həsr etdi. O, demişdir: "Azərbaycanın müstəqilliyi əbədidir, dönməzdir, daimidir".

Azərbaycan Xalq Cumhuriyyəti xalqımızın qədim dövlətçilik ənənələrini yaşadaraq həmin dövr üçün mütərəqqi hesab edilən dövlət təsisatlarının yaradılmasına nail olmuşlar. Gərgin və mürəkkəb şəraitdə fəaliyyət göstərən demokratik dövlət quruculuğu, iqtisadiyyat, mədəniyyət, hərbi quruculuq və başqa sahələrdə həyata keçirdiyi işlər xalqımızın tarixinin parlaq səhifəsidir. İstiqlal bəyannaməsi elan edildiyi 28 may hazırda Dövlət Müstəqilliyinin bərpa edildiyi tarix "Respublika Günü" kimi qeyd olunur. Bu gün ulu öndərin siyasi kursunun layiqli davamçısı Prezident İlham Əliyevin düşünülmüş daxili və xarici siyasəti nəticəsində ölkəmiz bir sıra beynəlxalq layihələrin həyata keçirilməsinə nail olmuşdur. Hazırda Azərbaycanın iştirakı olmadan regionda irimiqyaslı beynəlxalq layihələrin keçirilməsi mümkün deyil. AXC-nin yaranmasının 100 illiyi ərəfəsində Azərbaycan inanılmaz inkişafa nail olmuşdur. Dövlətimizin başçısı cənab İlham Əliyevin bütün peşə sahiblərinə, o cümlədən ədliyyə sahəsində çalışan insanlara sonsuz diqqət və qayğısı danılmazdır. Bu sahədə daim mütərəqqi islahatlar aparılır, ədliyyə işçilərinin sosial müdafiəsinin təminatı üçün mütəmadi olaraq bir sıra reformalar həyata keçirilir.

**Ruziyyə ALLAHVERDİYEVA,**
**Şəmkir rayon qeydiyyat şöbəsinin rəisi, ədliyyə müşaviri.**

*23 May Ekologiya və Təbii Sərvətlər Nazirliyi İşçilərinin Peşə Bayramı Günüdür*

# Təbiətə qayğı sağlamlığa, iqtisadiyyata qayğıdır

***Bu reallıqdır və əsrlərin süzgəcindən keçib gələn tövsiyədir, məsləhətdir. Bir çox xəstəliklərin loğmanı, möhkəm iqtisadiyyatımızın sınmayan qolu olduğunu, təbiəti sevənlər, ona vicdanının səsi ilə qulaq asıb hər səsinə, harayına hay verənlər yaxşı bilir və bunu çox-çox sınaqdan çıxarıblar. Qocaman Qafqaza sığınan Oğuz və İsmayıllı rayonlarına yolunuzu salsanız, onun təbiətcanlı insanları ilə həmsöhbət olsanız, yuxarıda sadaladığımız keyfiyyətlərin canlı şahidinə çevrilərsiniz. Bölgə müxbirimizin ekologiya və təbii sərvətlər işçilərinin peşə bayramları ərəfəsində yuxarıda adıçəkilən rayonlardan hazırladığı materiallarda da bu məsələlərdən bəhs olunur.***

## Oğuz

Təbiəti də özü qədər gözəldir, füsunkardır. Oğuzun hər tərəfdən yamyaşıl hündür dağlarının, əl-əlvan geyimli min bir dərdin dərmanını qoynunda yetirən bol sərvətli meşələrinin seyrinə çıxanda Baş Daşağılda, Filfillidə, Xalxalda və digər guşələrindəki buz bulaqlarının suyundan bircə qurtum içəndə dağların, qayaların hörüklərini xatırladan şəlalələrinin həzin səsini dinləyəndə, sərinliyini sinənə çəkəndə bütün ağrı-acılarını unudur, özündə daha çox gümrahlıq hiss edirsən. Rayon Meşələrin Mühafizəsi və Bərpası Müəssisəsinin direktoru Cabbar Qəribov söhbətinə yuxarıdakı fikirlərlə başladı və bir məsələni vurğuladı ki, təbiət qocalmır, o varını, dövlətini bəxş edir, qocaldıqca, sanki cavanlaşır, özünə sığal, nəvaziş görəndə sevinci yerə-göyə sığmır. Cabbar Qəribov meşənin, təbiətin bilicisi, əsl vurğunu olduğunu lap çoxdan bildiyim üçün onun bu fikirlərinin tam səmimiliyinə inanmaya bilməzdim. Onu da yaxşı bilirdim ki, bu əvəzsiz sərvətə xor baxanlara qarşı da çox qəddardır. Söhbətinin davamında konkret faktlarla bəzi məsələlərə aydınlıq gətirdi:

- Oğuzun 28 min 652 hektar meşə fondu torpaqları var. Müəssisəmiz 3 meşəbəyliklə əhatə olunur. Həmin meşəbəyliklər 33 dolayı əhatə edir. Meşə və dağlarımız əsasən palıd, fısdıq, vələs, qızılağac, yalanqoz və sair cinslərdən olan ağaclardan ibarətdir. Ölkəmizdə qeyri-neft sektorunun inkişafına dəstək məqsədilə aqrobağların salınması, barədə qarşıya qoyulan vəzifələrə müəssisəmiz də məsuliyyətlə yanaşır. 2018-ci ildə 80 hektarda aqrobağlar salmalıyıq. Artıq yaz mövsümündə 30 hektarda fındıq və qoz ağacları əkilmişdir.



Müəssisəmizin tinglik sahəsində xidmət işlərinə xüsusi diqqət yetirilir. Burada gələcəkdə salınacaq aqrobağlarda əkmək üçün əkin materialı yetişdirilir. Öz işinə məsuliyyətlə yanaşan işçilərimiz çoxdur. Hikmət İsmayılov, Nəriman Qədirov, Elşad Qafarov, İmran Haşımov və başqaları təbiəti sevir, qoruyur, daha da zənginləşdirirlər, verilən hər bir tapşırığı layiqincə yerinə yetirirlər.

Meşələrə diqqət və qayğını artırmaq üçün maarifləndirici tədbirlərə də geniş yer verilir.

## İsmayıllı

Düzlərini dolanıb, zirvələrinə çıxmasan, sərin bulaqlarının qırağında süfrə açıb pendir-çörək yeməsən, Girdimanın sərt səsini eşitməsən, qış gələndə odu-ocağı, gedib-gələni azalan yerlərini qarış-qarış gəzməsən, İsmayıllı torpağının təbiətinin ləzzətini dada bilməzsən. Bəli, İsmayıllı torpağı barlı-bərəkətli, var-dövlətli həmişə də qonaqlı-qaralıdır. Bəs bu ecazkar təbiət necə qorunur, necə artırılır, sağlamlığın ünvanı, iqtisadiyyatın bir qolu kimi ona necə münasibət bəslənilir? Sevənləri lap çox olmaqla, ona ögeylik göstərənləri də var. Amma nəticə etibarilə İsmayıllıya xüsusi yaraşıq, gözəllik gətirən meşələr, dağlar bu gün hamının üz tutduğu ünvandır. İsmayıllı Meşələrin Mühafizəsi və Bərpası Müəssisəsinin direktoru Elnur Abdullayevin dediklərindən:

- Ümumi sahəsi 35557 hektardır. 5 meşəbəylikdən - Qalıncaq, Topçu, Talıstan, Basqal və Girdiman meşəbəyliklərindən ibarətdir. İsmayıllı Meşələrin Mühafizəsi və Bərpası Müəssisəsində ölkə Prezidentinin meyvə bağı sahələrinin genişlənməsi ilə əlaqədar verdiyi mühüm tapşırıqlara əsasən Ekologiya və Təbii Sərvətlər Nazirliyinin tədbirlər planına uyğun olaraq 2017-ci ildə və 2018-ci ilin yaz mövsümünə 173,10 hektar meyvə bağı salınmışdır. Bundan 83,62 hektar qoz, 84,54 hektar fındıq, 0.94 hektar badam bağı, 2 hektar xurma, 1 hektar isə alça, ərik və gilas cinslərindən olan meyvə bağı salınmışdır. 2018-ci ilin payız mövsümündə müəssisə 60.0 hektarda məhsul əldə etməyi nəzərdə tutur. Müəssisədə meşə bərpa tədbirləri də aparılır. Toxumluq sahələrində, meşə əkinlərinə aqrotexniki qaydada xidmət olunur. Müəssisənin 4 hektar tinglik sahəsində 350 min ədəd ağcaqayın, qarağac, tut, qoz və alma cinslərindən tinglər yetişdirilmişdir. Müəssisədə 45 arı ailəsi mövcuddur.

Müəssisə 665 kubmetr həcmində quru tör-töküntüdən odun tədarük edərək hərbi hissələrə, idarə və təşkilatlara, şəhid ailələrinə və qaz təchizatı olmayan kənd əhalisinə qanuni qaydada satışını təşkil etmişdir.



İsmayıllı Meşələrin Mühafizəsi və Bərpası Müəssisəsində meşə-bərpa tədbirləri aqromeşə bağlarının salınması, mühafizə işlərinin aparılmasında müəssisənin əməkdaşlarından Kamil Məmmədov, Bəxtiyar Xəlilov, Füzuli Nadirov, Azər Qarayev fəallıq göstərirlər.

**Rasim AMANOV,**
**"Respublika".**

*Səbail rayonu*

# "Dini radikalizmə qarşı mübarizədə gənclərin rolu"

**Səbail Rayon İcra Hakimiyyəti, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi və Səbail Rayon Polis İdarəsinin birgə təşkilatçılığı ilə 20-ci yaşayış sahəsindəki 51 nömrəli tam orta məktəbdə "Dini radikalizmə qarşı mübarizədə gənclərin rolu" mövzusunda maarifləndirici tədbir keçirilib.**



Tədbirdə Səbail RİHBA-nın, Bakı Şəhər və Səbail Rayon Polis İdarəsinin DQİDK-nın Bakı şəhəri üzrə şöbəsinin əməkdaşları, ictimaiyyət nümayəndələri, məktəbin müəllim və şagirdləri iştirak ediblər.

Giriş sözü ilə çıxış edən məktəbin direktoru **Tərlan Bayramova** orta məktəblərdə dini radikalizmlə bağlı keçirilən tədbirlərin əhəmiyyətindən danışıb.

Səbail RİH başçısı Aparatının İctimai-siyasi və humanitar məsələlər üzrə şöbəsinin müdir müavini - dini qurumlarla iş təşkilatçısı İsrafil Kərimov rayondakı mövcud dini vəziyyət və dini radikalizmin qarşısının alınması məqsədilə həyata keçirilən tədbirlər haqqında danışıb.

BŞBPİ-nin İctimai Təhlükəsizlik İdarəsinin yetkinlik yaşına çatmayanlarla profilaktiki iş üzrə təşkili bölməsinin rəisi Məryəm Ömərova gənclərin zərərli vərdişlərdən və dini radikalizmin təsirlərindən qorunmasının vacibliyini vurğulayıb.

DQİDK-nın Bakı şəhəri üzrə şöbəsinin əməkdaşı Nuru İmanov dini radikalizmin mahiyyəti, onun milli-mənəvi dəyərlərimizə zərərli təsirləri və Dövlət Komitəsinin dini radikalizmlə mübarizə istiqamətində gördüyü ideoloji tədbirlər barədə məlumat verib.

Səbail RPİ-nin şöbə rəisi Anar Hüseynov hazırda dini radikalizm və zərərli vərdişlərə qarşı mübarizənin hüquq-mühafizə orqanları qarşısında duran əsas vəzifələrdən biri olduğunu diqqətə çatdırıb.

Sonda məktəblilərin sualları cavablandırılıb və DQİDK-nın hazırladığı "Şəhadət" filmi nümayiş etdirilib.

**Məhəmməd VƏLİYEV,**
**"Respublika".**

# DÖVLƏT FİTOSANİTAR NƏZARƏTİ XİDMƏTİNDƏ ÜMUMRESPUBLİKA MÜŞAVİRƏSİ

**Kənd Təsərrüfatı Nazirliyi yanında Dövlət Fitosanitar Nəzarəti Xidmətində "Azərbaycan ərazisində mövcud fitosanitar vəziyyət və bitki mühafizəsi sahəsində innovativ idarəetmənin tətbiqi" mövzusunda ümumrespublika müşavirəsi keçirilib. Müşavirədə Dövlət Xidmətinin Mərkəzi Aparatının, Respublika Bitki Mühafizəsi Mərkəzinin, Rayon Bitki Mühafizəsi mərkəzlərinin, Rayonlararası Bioloji laboratoriyaların və Regional Aqrokimya laboratoriyalarının rəhbərləri və mütəxəssisləri iştirak ediblər.**



Dövlət Xidmətinin rəisi Camal Quliyev müşavirədə respublika ərazisində mövcud fitosanitar vəziyyəti geniş təhlil edərək, zərərli orqanizmlərə qarşı mübarizə tədbirlərinin rasionallaşdırılması, pestisidlərdən istifadə zamanı müasir yanaşmanın tətbiqi, bioloji mübarizə üsullarından istifadənin genişləndirilməsi, inteqrir mübarizə tədbirləri sxeminə keçidin sürətləndirilməsi istiqamətində görülən işlər barədə ətraflı məlumat verib.

"Regional aqrokimya laboratoriyaları tərəfindən əkin sahələrində və digər kənd təsərrüfatına yararlı torpaqlarda torpağın morfoloji, fiziki-kimyəvi, mexaniki və bioloji xüsusiyyətlərindən asılı olaraq kənd təsərrüfatı bitkilərinin qida maddələri, rütubət ehtiyatı ilə təmin edilməsinin müəyyənləşdirilməsi, torpağın qida maddələri ilə təminolunma dərəcəsindən, bitkilərin bioloji xüsusiyyətindən və məhsuldarlığından asılı olaraq tələb olunan gübrə normalarının təyin edilməsi sahəsində fermerlərə və torpaq mülkiyyətçilərinə dəstək gücləndirilməlidir", - deyə C.Quliyev vurğulayıb.

Müşavirədə bitki mühafizəsi tədbirlərinin çevikliyini, obyektivliyini və etibarlılığını təmin etmək məqsədi ilə əsas kənd təsərrüfatı bitkilərinin zərərli orqanizmlərinin proqnozu əsasında mübarizə tədbirlərinin vaxtının və həcminin müəyyənləşdirilməsi, məlumat və erkən xəbərdarlıq sisteminin təkmilləşdirilməsi ilə bağlı müvafiq tapşırıqlar verilib.

**Nəriman CAVADOV,**
**"Respublika".**

# Bakı Şəhər Prokurorluğu Binəqədi rayonunda çayxanada baş verən partlayışla bağlı məlumat yayıb

**Bakı Şəhər Prokurorluğu paytaxtın Binəqədi rayonu ərazisində yerləşən çayxanada baş verən partlayışla bağlı məlumat yayıb.**

AZƏRTAC-a daxil olan məlumatda bildirilir ki, mayın 21-də saat 15 radələrində Binəqədi rayonu ərazisində yerləşən "Azərtransservis" Açıq Səhmdar Cəmiyyətinin həyətində fəaliyyət göstərən çayxanada iki nəfərin ölümü ilə nəticələnən propan qaz balonlarının partlaması ilə bağlı rayon prokurorluğuna daxil olmuş məlumat əsasında dərhal hadisə yerinə və meyitlərə rayon prokurorluğunun, polis idarəsinin, Regional Qaz İstismar Departamentinin Binəqədi istismar idarəsinin əməkdaşlarının və məhkəmə-tibb ekspertinin iştirakı ilə baxış keçirilib.

Faktla bağlı Binəqədi Rayon Prokurorluğunda Cinayət Məcəlləsinin 314.3-cü (səhlənkarlıq, ehtiyatsızlıqdan iki və daha çox şəxsin ölümünə səbəb olduqda) maddəsi ilə cinayət işi başlanıb, iş üzrə məhkəmə-tibb, məhkəmə-təhlükəsizlik texnikası ekspertizaları təyin olunub, şahidlər dindirilib və digər zəruri prosessual hərəkətlər yerinə yetirilib.

Partlayış nəticəsində çayxananın işçisi Saatov Söhrab Yusif oğlu, həmin vaxt orada olan müştəri İbrahimova Mömünə Rəhim qızı aldıqları bədən xəsarətlərindən hadisə yerində vəfat ediblər. Çayxanada olan digər müştəri İbrahimov Natiq Zahid oğlu və çayxananın işçisi İbrahimova Şəkər Xosrov qızı isə 5 nömrəli Şəhər Klinik Xəstəxanasının yanıq şöbəsinə yerləşdirilib.

N.İbrahimov mayın 22-də xəstəxanada dünyasını dəyişib. Ş.İbrahimovanın müalicəsi hazırda davam edilir.

Cinayət işi üzrə "Azərtransservis" ASC-nin icraçı direktoru Haqverdiyev Arif Məmməd oğlu şübhəli şəxs qismində tutulub.

Hazırda iş üzrə zəruri istintaq tədbirləri davam etdirilir.

**AZƏRTAC**


## BİLDİRİŞ

"Aqrolizinq" Açıq Səhmdar Cəmiyyəti Regional Nümayəndəlikləri və onların rayon bölmələrinin istifadəsində olan kombaynlar üçün 560 ədəd yağınsöndürən balonların doldurulması məqsədilə kotirovka sorğusu keçirir.

İştirak etmək istəyənlər şərtlər toplusunu aşağıdakı ünvandan ala bilərlər:

**Ünvan:** *Bakı şəhəri, Bakıxanov qəsəbəsi, B.Bünyadov-12.*

**Əlavə məlumat üçün əlaqə telefonu:** *(012) 425-66-94.*

Kotirovka sorğusu üçün bağlı zərflərin qəbulunun son tarixi 25.05.2018-ci il saat 17:00.

## BİLDİRİŞ

Aqrolizinq" Açıq Səhmdar Cəmiyyətinə məxsus çap qurğularının (printerlərin) cari və əsaslı təmirinin aparılması məqsədilə malların (işlərin və xidmətlərin) satınalınması məqsədi ilə kotirovka sorğusu keçirir.

İştirak etmək istəyənlər şərtlər toplusunu aşağıdakı ünvandan ala bilərlər:

**Ünvan:** *Bakı şəhəri, Bakıxanov qəsəbəsi, B.Bünyadov-12.*

**Əlavə məlumat üçün əlaqə telefonu:** *(012) 425-66-94.*

Kotirovka sorğusu üçün bağlı zərflərin qəbulunun son tarixi 25.05.2018-ci il saat 17:00.


# DÜNYA BUGÜN

*FAKTLAR, HADİSƏLƏR, ŞƏRHLƏR*

## ABŞ İRANA QARŞI YENİ RAZILAŞMA ÜÇÜN 12 ŞƏRT İRƏLİ SÜRÜB



ABŞ dövlət katibi Maykl Pompeo İranla yeni razılaşma imzalanması üçün 12 şərt irəli sürüb. "APA"-nın verdiyi məlumata görə, ABŞ dövlət katibi qeyd edib ki, Tehran uranın zənginləşdirilməsi üzrə işləri dayandırmalı və heç vaxt pluton emalı ilə məşğul olmamalıdır.

Eyni zamanda, Maykl Pompeo İranın ballistik raketlərin yayılmasını və raket hazırlanmasını dayandırmalı olduğunu bildirib. O həmçinin əlavə edib ki, Tehran Yaxın Şərqdə fəaliyyət göstərən terrorçu qruplaşmaları maliyyələşdirməməlidir.

Bununla yanaşı, xəbər verilir ki, ABŞ İranın Suriyadakı bütün qüvvələrini çıxarmasını da tələb edir.

M.Pompeonun sözlərinə görə, İran bu şərtləri qəbul edib, siyasətini dəyişməsə, ona qarşı tarixin ən ağır sanksiyaları tətbiq ediləcək.

Qeyd edək ki, bu il mayın 8-də ABŞ prezidenti Donald Tramp ölkəsinin İranla nüvə proqramına dair imzalanmış razılaşmadan çıxdığını bəyan edib. Bu razılaşma Tehranın nüvə sahəsində fəaliyyətinin məhdudlaşdırılması qarşılığında BMT Təhlükəsizlik Şurası, o cümlədən ABŞ və Avropa Birliyinin tətbiq etdiyi sanksiyaların aradan qaldırılmasını nəzərdə tutub.

## İRAN XİN-i ÖLKƏSİNİN SURİYADAN ÇIXMASININ ŞƏRTLƏRİNİ AÇIQLAYIB



"Terrorizm mövcud olduqca, rəsmi Dəməşq istədikcə, İran Suriyada qalacaq". "APA"-nın məlumatına görə, bunu İranın Xarici İşlər Nazirliyinin sözçüsü Bəhram Qasımi keçirdiyi mətbuat konfransında bəyan edib.

Rusiyanın istəyi ilə əcnəbi qüvvələrin Suriyadan çıxmasına dair yayılan məlumatlara münasibət bildirən Bəhram Qasımi qeyd edib ki, heç kim İranı hansısa işi görməyə məcbur edə bilməz. O deyib: "Suriya hökumətinin icazəsi olmadan həmin ölkəyə girənlər Suriyanı tərk etməlidir".

Hərtərəfli Birgə Fəaliyyət Planını razılaşdıran ölkələr arasında İranın nüvə proqramı ilə bağlı müzakirələrin olacağı ilə bağlı yayılan məlumatlara gəldikdə isə Bəhram Qasımi bildirib ki, bu kimi məlumatların yayılmasının məqsədi çaşqınlıq yaratmaqdır.

Bəhram Qasımi deyib: "Almaniya qəzetində çap olunan məlumat yalandır və bizim Hərtərəfli Birgə Fəaliyyət Planından başqa heç bir müzakirəmiz olmayacaq. Avropa ölkələrinin rəhbərləri yüksək intellekt sahibidir və İranla hansı məsələləri müzakirə edəcəklərini yaxşı bilirlər. Gələn həftənin cümə günü Hərtərəfli Birgə Fəaliyyət Planının müştərək komissiyasının iclası keçiriləcək. ABŞ sazişdən çıxdığından sonra bu ilk görüş olacaq. Görüş İranın istəyi ilə keçirilir və bizi maraqlandıran məsələlər haqqında müzakirə aparılacaq".

Eyni zamanda, Bəhram Qasımi qeyd edib ki, ABŞ Hərtərəfli Birgə Fəaliyyət Planından birtərəfli çıxmaqla dünyaya etibarlı tərəfdaş olmadığını sübut edib. "ABŞ-ın beynəlxalq razılaşmadan çıxmaq və digər şərtlər irəli sürərək müzakirələrə yenidən başlamaq istəməsi utancvericidir. Bunu düşünmək belə qəbuledilməzdir. İranın ABŞ-la bağlı mövqeyi şəffaf olub. Xəbərlərdə Hərtərəfli Birgə Fəaliyyət Planının yerinə yeni proqramın hazırlanacağı ilə bağlı yayılan məlumatlar əsassızdır".

Bununla yanaşı, ABŞ-la Şimali Koreya arasındakı müzakirələrə gəldikdə İran XİN-in sözçüsü bildirib ki, Tehran dünyanın hər yerində sülh və sabitlik tərəfdarıdır.

## BRİTANİYA ABRAMOVİÇİN VİZASININ MÜDDƏTİNİ UZATMAQDAN İMTİNA EDİB



Böyük Britaniya məşhur rusiyalı milyarder Roman Abramoviçin vizasının müddətini uzatmaqdan imtina edib. "APA"nın məlumatına görə, bu barədə "The Bell" nəşri rusiyalı biznesmenin yaxın ətrafına istinadən məlumat yayıb.

Həmin şəxslər nəşrə R.Abramoviçin əvvəlki vizasının müddətinin üç həftə əvvəl başa çatdığını, ancaq ona yeni viza verilmədiyini bildiriblər.

Qəzetin yazdığına görə, bu səbəbdən R.Abramoviç sahibi olduğu "Çelsi" klubunun "Mançestr Yunayted" klubu ilə İngiltərə Kubokunun finalındakı görüşünü izləyə bilməyib.

Digər mənbə isə qəzetə bildirib ki, hələ rəsmən Roman Abramoviçə viza verilməsindən imtina olunmayıb və Böyük Britaniya hökumətinin onun sənədlərinə baxmağa davam edir.

Eyni zamanda, biznesmenin nümayəndəsi və Böyük Britaniya hökumətinin miqrasiyaya nəzarəti həyata keçirən departamenti məsələ ilə bağlı şərh verməkdən imtina edib.

Qeyd edək ki, Abramoviç ilk dəfə deyil ki, Britaniya vizasını uzatmaq üçün müraciət edir, lakin bu dəfə yubanma baş verib, söhbət viza müraciətinə rədd cavabından getmir.

Britaniya hökumətinin saytında bildirilib ki, investor vizası ilk dəfə 40 ay müddətinə verilir və bundan sonra 2 il müddətinə uzadıla bilər.

## AĞ EV: DONALD TRAMP VƏ KİM ÇEN IN GÖRÜŞÜ HƏLƏ PLANLAŞDIRILMAQDADIR



ABŞ prezidenti Donald Tramp və Şimali Koreya lideri Kim Çen In arasında iyunun 12-də Sinqapurda gözlənilən görüş planlaşdırılmaqdadır və D.Tramp bu məsələni Cənubi Koreya prezidenti Mun Çje İnlə telefon danışığı zamanı müzakirə edib. "APA"nın Rusiya mətbuatına istinadən verdiyi xəbərə görə, bu barədə Ağ Evin mətbuat xidməti məlumat yayıb.

"Prezident Donald Trampın ötən axşam Cənubi Koreya prezidenti Mun Çje İnlə telefon danışığı olub. Liderlər Şimali Koreyadakı son hadisələri müzakirə ediblər və Donald Tramp KXDR lideri Kim Çen Inla görüşənədək Cənubi Koreya ilə sıx əlaqələndirilməni davam etdirməyin vacib olduğunu qeyd ediblər. Prezident Tramp bildirib ki, Mun Çje İnin mayın 22-də Vaşinqtona səfəri zamanı bu məsələ yenidən müzakirə ediləcək", - deyə Ağ Evin məlumatında bildirilir.

Məlumat üçün qeyd edək ki, Donald Tramp bundan əvvəl KXDR lideri ilə görüşünün iyunun 12-də Sinqapurda baş tutacağını bildirib. Pxenyan daha sonra xəbərdarlıq edib ki, əgər ABŞ Koreya yarımadasının birtərəfli şəkildə nüvəsizləşdirilməsini tələb etməkdə davam edərsə, onda KXDR planlaşdırılan görüşdən imtina edəcək.

## AB İRANLA NEFT TİCARƏTİ İLƏ BAĞLI İŞÇİ QRUPU YARADIB



Avropa Birliyi İranla normal neft ticarətinə mane olan problemlərin həlli üzərində çalışır. "APA"nın "İRNA" agentliyinə istinadən verdiyi məlumata görə, bunu İranın neft naziri Bican Zanqani ilə görüşdən sonra keçirilən mətbuat konfransında Avropa Birliyinin enerji məsələləri üzrə komissarı Migel Arias Kanete bildirib.

Avrokomissarın sözlərinə görə, İran tərəfi maliyyə, nəqliyyat, sığorta və mühafizə sahəsində baxılması zəruri olan bütün məsələləri təqdim edib. "Bu problemləri həll etmək üçün biz neft ticarəti məsələləri ilə əlaqədar işçi qrupu yaratmağa qərar verdik və bu qrupun ilk iclası mayın 21-də keçirilib. Avropa Birliyi İranla neft sahəsində ticarəti dəstəkləmək niyyətindədir", - deyə Migel Arias Kanete əlavə edib.

Qeyd edək ki, İranda səfərdə olan Migel Arias Kanete bazar günü İranın Atom Enerjisi üzrə Təşkilatının rəhbəri Əli Əkbər Salehi ilə görüşdən sonra bildirib ki, Avropa Birliyi və İran noyabrın sonunda Brüsseldə atom sahəsində əməkdaşlıq üzrə yüksək səviyyəli seminar keçirmək barədə razılığa gəlib.

## NEFT YENİ HƏFTƏYƏ BAHALAŞMA İLƏ BAŞLAYIB



Dünya bazarında neft yeni həftəyə bahalaşma ilə başlayıb. "APA"nın məlumatına görə, ilk seanslarda dəyər qazanan "Brent" nefti 80 dolları keçib. Hazırda bu markadan olan neft 80,35 dollara satılır. Qərbi Texas nefti də bahalaşaraq 72,76 dollardan təklif olunur.

Məlumata əsasən, qiymətlərə təsir edən hadisələrdən biri ABŞ-la Çinin ticarətdə razılaşma əldə etməsidir. ABŞ-ın maliyyə naziri Stiven Mnuçin bazar günü açıqlamasında iki ölkə arasında müşahidə olunan ticarət müharibəsində atəşkəs elan olunduğu qeyd olunur.

Verilən xəbərə görə, sözügedən gərginlik beynəlxalq bazarın böyüməsinə mane olacaq amildir. Bazar böyüdükcə neftə tələbat artır. Bu səbəbdən iki ölkə arasındakı razılaşma qiymətlərə müsbət təsir edir.

Eyni zamanda, bildirilir ki, Səudiyyə Ərəbistanının neft naziri Xalid Əl-Falih isə bu həftə rusiyalı həmkarı Aleksandr Novakla görüşərək, tərəflər qiymətlər də daxil olmaqla, ümumilikdə neft sektorundakı mövzuları müzakirə edəcəklər. ■

## AZƏRBAYCAN RESPUBLİKASININ ƏMLAK MƏSƏLƏLƏRİ DÖVLƏT KOMİTƏSİ

# AÇIQ TENDERƏ DƏVƏT EDİR

Azərbaycan Respublikasının Əmlak Məsələləri Dövlət Komitəsi tərəfindən yaradılmış Torpaqların Elektron Kadastr Uçotu İnformasiya Sistemi, Daşınmaz Əmlakın Qeydiyyatı, Kadastrı və İdarəedilməsi Sisteminin yeni kadastr modulu və Ünvan Reyestri İnformasiya Sisteminin auditi işlərinin "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununun tələblərinə uyğun satın alınması üzrə açıq tender elan edir.

İnformasiya sistemlərinin auditi sahəsində təcrübəsi olan və ixtisaslı işçi heyətinə malik rezident və qeyri-rezident hüquqi şəxs, yaxud yeni hüquqi şəxs yaratmadan hüquqi şəxslər birliyi (konsorsium da daxil olmaqla) iştirak edə bilərlər.

Tenderdə iştirak etmək istəyənlər 500 (beş yüz) manat və ya Azərbaycan Respublikası Mərkəzi Bankının rəsmi məzənnəsinə uyğun olaraq (www.cbar.az) 500 (beş yüz) manatın ödəniş gününə ABŞ dolları ilə ekvivalentini tenderdə iştirak haqqı kimi aşağıda göstərilən bank hesablarından birinə köçürdükdən və bunu təsdiq edən sənədi təqdim etdikdən sonra Azərbaycan dilində tərtib olunmuş Tenderin Əsas Şərtlər Toplusunu Bakı şəhəri, Xətai rayonu, Yusif Səfərov küçəsi, 50 (Əmlak Məsələləri Dövlət Komitəsi, otaq № 812, tel.: +99412 4902408 (daxili: 242 və ya 299); faks: +99412 4903359), e-mail: mbayramov@emdk.gov.az) ünvanından ala bilərlər:

**AZN hesabı**

**Emitent**
*Dövlət Xəzinədarlıq Agentliyi*
*Bank kodu: 210005*
*VÖEN: 1401555071*
*Müxbir hesabı: AZ41NABZ01360100000000003944*
*S.W.İ.F.T. bik: CTREAZ22*
**Alan**
*Əmlak Məsələləri Dövlət Komitəsi*
*VÖEN: 2000015631*
*H/H- AZ84CTRE00000000000002647970*
*Büdcə səviyyəsinin kodu -7*
*Büdcə təsnifatının kodu -142340*

**USD hesabı**

*Alan: Əmlak Məsələləri Dövlət Komitəsi*
*Ünvan: Bakı şəhəri, Yusif Səfərov küçəsi 50*
*VÖEN: 2000015631*
*Dollar hesabı: AZ02AİİB32150018403700201107*
*Büdcə səviyyəsinin kodu - 7*
*Büdcə təsnifatının kodu -142340*
*"Kapital Bank" ASC-nin Xətai filialı*
*VÖEN: 9900003611*
*Bank kodu: 200071*
*Hesab: AZ56NABZ01350200000000001840*

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

*1. Tenderdə iştirak etmək üçün yazılı müraciət.*

*2. Tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi.*

*3. Tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 (otuz) bank günü qüvvədə olmalıdır).*

*4. Tender təklifi dəyərinin 2 (iki) %-i bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 (altmış) bank günü qüvvədə olmalıdır).*

*5. Vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi və sosial müdafiə orqanından arayış.*

*6. İddiaçının son 1 (bir) ildəki fəaliyyəti haqqında dövlət orqan(lar)ı tərəfindən təsdiq olunmuş maliyyə hesabatı.*

*7. İddiaçının son 1 (bir) ildəki maliyyə vəziyyəti haqqında bank arayışı.*

*8. İddiaçının ilkin qeydiyyat sənədlərinin və onlara edilmiş əlavə və düzəlişlərin müvafiq qaydada təsdiq edilmiş surətləri (iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsinin qeydiyyatdan keçdiyi ölkə və əsas fəaliyyət yeri göstərilməklə) və rekvizitləri.*

*9. Tender təklifini və satınalma müqaviləsini imzalamaq səlahiyyətinə malik olan şəxsin səlahiyyətlərini təsdiq edən sənəd.*

*10. İddiaçının analoji işlər üzrə iş təcrübəsini təsdiq edən sənədlər.*

*11. Digər sənədlər (tenderin Əsas Şərtlər Toplusunda göstərilən bütün digər sənədlər).*

İddiaçılar konsorsium yaratmaqla tenderdə iştirak etmək istəyirlərsə, konsorsium barədə müqavilə, eləcə də konsorsium iştirakçısı olan bütün şirkətlər barədə yuxarıda göstərilən zəruri sənədləri (məlumatları) təqdim etməlidirlər.

İddiaçılar tender təkliflərini qapalı, möhürlənmiş və imzalanmış ikiqat zərflərdə iki nüsxədə (üzərində "Əsli" və "Surəti" yazılmış) təqdim etməlidirlər. İddiaçıların təkliflərinin "Əsli" və "Surəti" arasında fərqlər olduqda üstünlük üzərində "Əsli" sözü yazılmış nüsxəyə veriləcəkdir.

Azərbaycan Respublikasından olan iddiaçıların tenderə təqdim edəcəkləri bütün sənədlər Azərbaycan Respublikasının dövlət dilində tərtib olunmalıdır. Xarici ölkələrdən olan iddiaçılar isə təmsil etdikləri dövlətin dilində hazırladıqları mətnlə birlikdə həmin mətnin Azərbaycan dilinə tərcümə olunmuş nüsxəsini əlavə etməlidirlər. Mətnlər arasında fərq aşkar edilərsə, üstünlük Azərbaycan dilində tərtib edilmiş mətnə veriləcəkdir.

Tender predmeti üzrə işlər satınalma müqaviləsi imzalandığı tarixdən etibarən 1,5 (bir tam onda beş) təqvim ayı müddətində icra olunmalıdır.

Tender təkliflərinin qiymətləndirilməsində aşağıdakı meyarlara üstünlük veriləcəkdir:

*- iddiaçı tərəfindən işin yerinə yetirilməsinə dair təklif olunan üsullar, yanaşma, keyfiyyətə nəzarət işinin təşkili və idarə edilməsi ilə bağlı təkliflər;*

*- iddiaçının bu sahədəki iş təcrübəsi;*

*- təklif olunan işçi heyətinin peşəkarlığı, təcrübəsi və səriştəsi;*

*- görüləcək işlərin dəyəri.*

İddiaçılar öz təkliflərini Əsas Şərtlər Toplusunda göstərilən müddəalara uyğun olaraq hazırlamalı, tenderdə iştirak etmək üçün sənədləri (tender təklifi və təklifin bank təminatı istisna olmaqla) 04 iyul 2018-ci il tarixinə qədər (saat 17.00-dək), tender təklifini və təklifin bank təminatını isə qapalı, möhürlənmiş, imzalanmış ikiqat zərflərdə 12 iyul 2018-ci il tarixinə qədər (saat 17.00-dək) Bakı şəhəri, Yusif Səfərov küçəsi, 50 (otaq № 814, əlaqələndirici şəxs - Fərid Əliyev) ünvanına təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların tender təklifləri 13 iyul 2018-ci il tarixində (saat 11.00-da) Bakı şəhəri, Xətai rayonu, Yusif Səfərov küçəsi, 50 (otaq № 310) ünvanında açılacaqdır.

Zərflər iddiaçıların səlahiyyətli nümayəndələrinin iştirakı ilə onların təqdimolunma ardıcıllığı üzrə açılacaq və təkliflər elan ediləcəkdir.

**Tender Komissiyası.**

---

TƏKRAR

## Azərbaycan Respublikasının Mənzil İnşaatı Dövlət Agentliyinin tabeliyində "MİDA" Məhdud Məsuliyyətli Cəmiyyəti Bakı şəhəri, Yasamal rayonu, Xarici dairəvi yolu "8" ünvanında inşa olunan yaşayış kompleksinin sayğaclaşdırılması ilə əlaqədar satınalmalar üzrə

# AÇIQ TENDER ELAN EDİR

**Tender 3 lot üzrə keçirilir:**

**Lot-1** - Elektrik enerjisi sayğaclarının alınıb quraşdırılması və istismara verilməsi;

**Lot-2** - Su sayğaclarının alınıb quraşdırılması və istismara verilməsi;

**Lot-3** - Qaz sayğaclarının alınıb quraşdırılması və istismara verilməsi.

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini imzalanmış, möhürlənmiş, ikiqat bağlamada, yazılı surətdə təqdim etsinlər. Tender təkliflərinin qiymətləndirilməsində aşağıdakı meyarlara üstünlük veriləcəkdir: aşağı qiymət, iddiaçının ixtisas göstəricilərinin aidiyyəti işlər üzrə uyğunluğu, kadr imkanları, iş təcrübəsi və müqavilənin ən qısa müddət ərzində icrası.

Tender predmeti haqqında ətraflı məlumat tenderin əsas şərtlər toplusunda verilir. Maraqlananlar tenderin əsas şərtlər toplusunu (Azərbaycan dilində hazırlanmış) tenderdə iştirak etmək üçün yazılı müraciət edib qeydiyyata alındıqdan sonra hər bir lot üzrə aşağıdakı hesaba 400 (dörd yüz) manat iştirak haqqı ödəməklə Bakı şəhəri, Cəlil Məmmədquluzadə küçəsi, 85Z ünvanından (əlaqələndirici şəxs: Vəliyev Zahid Musa oğlu, telefon: (+99412) 436-38-35 daxili 238) ala bilərlər.

*VÖEN: 1701953921*
*"Kapital Bank" ASC-nin Mərkəz filialı*
*Filialın kodu: 200026*
*VÖEN: 9900003611*
*SWİFT kod: AİİBAZ2X*
*M/h AZ37NABZ01350100000000001944*
*"MİDA" MMC*
*Hesab: AZ18AİİB38030019440029636102*

**Ödənilmiş iştirak haqqı heç bir halda geri qaytarılmır.**

Malgöndərənlər (podratçılar) iddiaçı statusu almaq və tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri (rəsmi blankda və möhürlə təsdiq olunmuş qaydada) təqdim etməlidirlər.

*1. Tenderdə iştirak etmək üçün ərizə;*

*2. İştirak haqqının ödənilməsini təsdiq edən bank sənədi;*

*3. Tender təklifi (tender təklifləri zərflərinin açıldığı gündən sonra azı 30 (otuz) bank günü qüvvədə olmalıdır);*

*4. Tender təklifinin ümumi qiymətinin 2 (iki) faizi məbləğində tender təklifinin təminatı - bank zəmanəti (təminatın qüvvədə olma müddəti tender təklifinin qüvvədə olma müddətindən azı 30 (otuz) bank günü çox olmalıdır);*

*5. Malgöndərənlər (podratçılar) haqqında tələb olunan sənədlər. Bu sənədlərə aşağıdakılar daxildir:*

*- Malgöndərənin (podratçının) tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*

*- İddiaçının analoji işlər üzrə yerinə yetirdiyi və ya icrasını davam etdirdiyi müqavilələrin təsdiq olunmuş surəti;*

*- Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi və sosial müdafiə orqanından arayış;*

*- Son 1 (bir) ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*

*- Son 1 (bir) ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*

*- İxtisas göstəricilərinə dair məlumatlar (bu məlumatlar tenderin əsas şərtlər toplusunda tələb olunan sənədlərdə və formalarda təqdim olunmalıdır);*

*- Digər sənədlər: xarici şirkətlər iştirak etdikdə onların Azərbaycanda nümayəndəliyinin olmasını təsdiq edən sənədlər.*

İddiaçılar 1, 2 və 5-ci bəndlərdə qeyd olunan sənədləri 2018-ci il 12 iyun tarixinə kimi Tender komissiyasına təqdim etməlidirlər. Həmin sənədlərdən hər hansı birini təqdim etməyən və ya ixtisas göstəricilərinə dair tələblərə uyğun olmayan iddiaçının tender təklifi qəbul olunmur.

İddiaçılar öz tender təkliflərini (imzalanmış, möhürlənmiş, ikiqat bağlama zərfdə) 2018-ci il 27 iyun saat 17.00-a qədər yuxarıda qeyd olunan ünvana təqdim etməlidirlər. Göstərilən tarixdən gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır. Tender təklifi zərfləri 2018-ci il 28 iyun tarixində saat 15.00-da "MİDA" MMC-də açılacaqdır.

**Tender Komissiyası.**

---




---

## BİLDİRİŞ

"Respublika" qəzetinin 15 may 2018-ci il tarixli sayında Azərbaycan Respublikası Maliyyə Nazirliyinin dərc olunmuş elanına aşağıdakı əlavə edilsin:

İlkin sənədlərin qəbulu 21 iyun 2018-ci il saat 11:00.

**Tender Komissiyası.**

---

## ƏMƏK VƏ ƏHALİNİN SOSİAL MÜDAFİƏSİ NAZİRLİYİ UŞAQ BƏRPA MƏRKƏZİ

2017-ci ilin Xərclər smetasında "Digər kommunal xidmətlərin haqqının ödənilməsi" xərc maddəsi üzrə Mərkəzdə quraşdırılmış "Lift avadanlıqlarına xidmət" üçün kotirovka sorğusu üsulu ilə satınalınmanı həyata keçirir.

Təkliflər 26 may 2018-ci il saat 11:00-da açılacaqdır.

**Ünvan:** *N.Nərimanov r-nu, Hacı Məmmədov küçəsi-12*

**Telefon:** *012 567 62 30.*

**Tender Komissiyası.**

---

## BİLDİRİŞ

**"Bakı Metropoliteni" QSC tərəfindən 01.06.2018-ci il tarixdə keçirilməsi nəzərdə tutulan "Reklam işləri üçün malların satınalınması" üzrə Açıq Tenderin vaxtı 25 iyun 2018-ci il tarixə saat 15:00-a keçirilmişdir. Bununla əlaqədar iddiaçılar tenderdə iştirak etmək üçün sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) 11 iyun 2018-ci il saat 18:00-a qədər, tender təklifi və bank təminatını isə möhürlənmiş ikiqat zərfdə 22 iyun 2018-ci il saat 18:00-a qədər, Bakı şəhəri, M.Rəfili küçəsi 20 ünvanına "İcraya Nəzarət, Kargüzarlıq və Təsərrüfat İşləri" şöbəsinə təqdim etməlidirlər.**

**Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.**

**"Bakı Metropoliteni" QSC-nin Tender Komissiyası.**

---

Maçanov İsaxan Yusif oğlunun adına Bakı şəhəri, Suraxanı rayonu, Hövsan qəsəbəsi, bağ N-122 ünvanın MH N-0003735 HDQHDƏDR çıxarış itdiyi üçün etibarsız sayılır.

Bakı şəhəri, Sabunçu rayonu, Pirşağı bələdiyyəsi tərəfindən Əliyev Kamil Balaca oğluna 300 kvadratmetr torpaq sahəsinə verilmiş 731 saylı 03 noyabr 2005-ci il tarixli icarə müqaviləsi itdiyi üçün etibarsız sayılır.

Daşdəmirov Çingiz Əli oğlunun adına verilmiş Qarabağ müharibəsi veteranı vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Lənkəran rayon aqrar islahat komissiyasının qərarı ilə Şağlaser kənd sakini Məmmədov Rahim Əhmədəli oğluna məxsus həyətyanı torpaq sahəsinə verilmiş JN 675 nömrəli Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

Daşınmaz Əmlakın Dövlət Reyestri Xidmətinin 10 saylı ərazi idarəsi tərəfindən Astara şəhəri, M.Əzizbəyov küçəsində yerləşən və Kərimov Fazil Ramazan oğluna məxsus torpaq sahəsinə verilmiş Daşınmaz Əmlakın Dövlət Reyestrindən çıxarış (seriya RX; N 0651063; reyestr N 801013019623; qeydiyyat N 2215002659; qeydiyyat tarixi: 12 may 2015-ci il) və Torpaq sahəsinin planı və ölçüsü (AA 006314; tərtib edilmə tarixi: 7 may 2015-ci il) itdiyi üçün etibarsız sayılır.

Yardımlı rayon aqrar islahat komissiyasının 27 noyabr 1997-ci il tarixli 11/1 nömrəli qərarı ilə Alar kənd sakini Nüsrətov Qafar Təhməz oğluna verilmiş Torpağa mülkiyyət hüququna dair Dövlət Aktı (JN 234; KOD 80402018) itdiyi üçün etibarsız sayılır.

Siyəzən şəhəri H.Z.Tağıyev küçəsi bina 8, mənzil 24-ə Bədəlova Elmira Rza qızının adına verilmiş 216 reyestr nömrəli qeydiyyat vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Siyəzən rayonu Yenikənd kənd sakini Məmmədov Orucağa Vəzir oğlunun adına verilmiş torpağın mülkiyyətə verilməsinə dair Şəhadətnamə (JN: 068 F, kod: 30505018) itidiyi üçün etibarsız sayılır.

Gəncə şəhəri H.Z.Tağıyev küçəsi ev 44 ünvanda yaşayan Əhmədov Orxan Bahəddin oğluna məxsus JN-280 və JN-477A saylı torpaq hüququna dair ŞƏHADƏTNAMƏ itdiyi üçün etibarsız sayılır.

Gəncə şəhəri Kəpəz rayonu Zülfü Hacıyev küçəsi 2-ci döngə ev 13-də yaşayan Abbasova Zaxlaf İsmayıl qızının adına 26.08.1991-ci il tarixində verilmiş 4950 nömrəli qeydiyyat vərəqəsi itdiyi üçün etibarsız sayılır.

Kürdəmir rayon aqrar islahat komissiyasının 26.07.2002-ci il tarixli 05 saylı qərarı ilə Abbasov Nurəkbər Aslan oğluna ayrılmış torpaq sahəsinə verilmiş JN-128 dövlət aktı itdiyi üçün etibarsız sayılır.

Kürdəmir rayon aqrar islahat komissiyasının 26.07.2002-ci il tarixli 05 saylı qərarı ilə Abbasova Rahilə Aslan qızına ayrılmış torpaq sahəsinə verilmiş JN-129 dövlət aktı itdiyi üçün etibarsız sayılır.

Kürdəmir rayon aqrar islahat komissiyasının 26.07.2002-ci il tarixli 05 saylı qərarı ilə Abbasova Gülənbər Aslan qızına ayrılmış torpaq sahəsinə verilmiş JN-130 dövlət aktı itdiyi üçün etibarsız sayılır.

Kürdəmir rayon aqrar islahat komissiyasının 26.07.2002-ci il tarixli 05 saylı qərarı ilə Ələsgərov Cəmil Həbib oğluna ayrılmış torpaq sahəsinə verilmiş JN-131 dövlət aktı itdiyi üçün etibarsız sayılır.

Kürdəmir rayon aqrar islahat komissiyasının 26.07.2002-ci il tarixli 05 saylı qərarı ilə Ələsgərova Milvari Həbib qızına ayrılmış torpaq sahəsinə verilmiş JN-132 dövlət aktı itdiyi üçün etibarsız sayılır.

Kürdəmir rayon aqrar islahat komissiyasının 26.07.2002-ci il tarixli 05 saylı qərarı ilə Ələkbərov Həbib Əli oğluna ayrılmış torpaq sahəsinə verilmiş JN-133 dövlət aktı itdiyi üçün etibarsız sayılır.

Kürdəmir rayon aqrar islahat komissiyasının 26.07.2002-ci il tarixli 05 saylı qərarı ilə Qurbanov Qurban Ağarza oğluna ayrılmış torpaq sahəsinə verilmiş JN-134 dövlət aktı itdiyi üçün etibarsız sayılır.

Kürdəmir rayon aqrar islahat komissiyasının 26.07.2002-ci il tarixli 05 saylı qərarı ilə Poladov Malik Əjdər oğluna ayrılmış torpaq sahəsinə verilmiş JN-135 dövlət aktı itdiyi üçün etibarsız sayılır.

---

## Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi

Qış geyim formalarının alınması ilə bağlı 2018-ci il 08 fevral tarixində elan olunmuş açıq tender iştirakçı sayı 3 (üç)-dən az olduğu üçün ləğv edilir.

**Əlaqələndirici şəxs:** *Kamal Səfərov*

**Əlaqə üçün telefon:** *444 74 44 (daxili: 24 53)*

**Əlaqə üçün email ünvanı:** *k.safarov@gmail.com*

---

## BİLDİRİŞ

**"Bakı Metropoliteni" QSC tərəfindən keçirilmiş "Bakı Metropoliteni" QSC-nin tələbatını təmin etmək məqsədilə 1900x800x400mm ölçülü dəmir dolabların satınalınmasına dair müsabiqədə "GBS" MMC şirkəti qalib elan olunmuşdur. Qalib gəlmiş təşkilat ilə 22.05.2018-ci il tarixdə ƏDV daxil 24 072,00 manat (iyirmi dörd min yetmiş iki manat 00 qəpik) məbləğində müvafiq satınalma müqaviləsi imzalanmışdır.**

**"Bakı Metropoliteni" QSC-nin Tender Komissiyası.**

---

16 may 2018-ci il tarixdə "Respublika" qəzetində dərc edilmiş Fövqəladə Hallar Nazirliyi Maddi-Texniki Təchizat İdarəsi tərəfindən təkliflər sorğusu üsulu ilə həyata keçirilməsi nəzərdə tutulan cihaz-avadanlıqların satınalınması prosedurunda iddiaçıların sayı 3-dən az olduğundan qeyd olunan prosedurun vaxtı uzadılmışdır.

Maraqlanan təşkilatlar (012) 512 47 62 telefon nömrəsi ilə əlaqə saxlaya bilər.

Təkliflər sorğusunda iştirak etmək üçün sənədlər 29 may 2018-ci il saat 17:00-a kimi qəbul olunur.

**Bakı şəhəri, Xocahəsən-Lökbatan yolu, 7-ci km qərbi.**

---

## Bakı Nəqliyyat Agentliyi yazılı və şifahi tərcümə xidmətlərinin satınalınması ilə əlaqədar

# KOTİROVKA SORĞUSU ELAN EDİR

**Bakı Nəqliyyat Agentliyi yazılı və şifahi tərcümə xidmətlərinin kotirovkalar sorğusu üsulu ilə satın alınmasını həyata keçirir. Maraqlanan təşkilatlar 404-41-20 (daxili 2268) telefon nömrəsi ilə əlaqə saxlaya bilərlər. Kotirovkalar sorğusunda iştirak etmək üçün sənədlər 24 may 2018-ci il tarixində saat 12:00-dək Bakı şəhəri, Ziya Bünyadov 111 ünvanında qəbul olunur.**

---

## Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Polis Akademiyası 2018-ci il üzrə

# AÇIQ TENDER ELAN EDİR

**Tender 1 (lot) lot üzrə keçirilir:**

**Lot-1: Bərk inventar (mebel avadanlığı)**

Tender iştirakçılarına təklif olunur ki, "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununa uyğun olaraq, yuxarıda göstərilən lot üzrə öz tender təkliflərini möhürlənmiş şəkildə ikiqat bağlamada yazılı surətdə təqdim etsinlər.

Təkliflərin qiymətləndirilməsində aşağıdakı meyarlara üstünlük veriləcəkdir: aşağı qiymət, yüksək keyfiyyət, müqavilələrin vaxtında yerinə yetirilməsi, analoji işlərində təcrübəsi, maliyyə vəziyyəti.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi texniki və maliyyə imkanlarına malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər lot üzrə aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Bakı şəhəri, Xəzər rayonu, Şüvəlan qəsəbəsi, A.İldırım küçəsi-3 ünvanında (əlaqələndirici şəxs: Ç.Yaqubova, tel.: (454-30-58) ala bilərlər.

**LOT-1 – 200 AZN**

*Adı: Dövlət Xəzinədarlıq Agentliyi*
*Kodu: 210005*
*VÖEN: 1401555071*
*M/H AZ41 NABZ01360100000000003944*
*S.W.İ.F.T. BİK-CTREAZ22*
*Adı: DİN-in Polis Akademiyası*
*Hesab: AZ04CTRE00000000000002077401*
*VÖEN: 1200114691*
*Fond: 7*
*Maddə 142340*

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

*- tenderdə iştirak etmək üçün ərizə;*

*- tender təklifi (zərflərin açıldığı gündən ən azı 30 bank günü qüvvədə olmalıdır);*

*- tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən ən azı 60 bank günü qüvvədə olmalıdır);*

*- Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqda müvafiq vergi orqanlarından arayış;*

*- son 1 (bir) il ərzində fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatlarının surəti;*

*- iddiaçının 1 (bir) il ərzində maliyyə vəziyyəti haqqında bank tərəfindən verilmiş arayış;*

*- iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*

*- müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları.*

Sənədlər Azərbaycan dilində 2 (iki) nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan sənədlər Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender proseduru "Dövlət satınalmaları haqqında" qanuna uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank zəmanəti istisna olmaqla) 3 iyul 2018-ci il saat 18:00-a qədər, tender təklifi və bank zəmanətini isə möhürlənmiş ikiqat zərfdə 11 iyul 2018-ci il saat 17:00-a qədər DİN-in Polis Akademiyasına (ünvan: Xəzər rayonu, Şüvəlan qəsəbəsi, A.İldırım küç.-3 əlaqələndirici şəxs: Ç.Yaqubova, tel.: 454-30-58) təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır. İddiaçıların təklifləri 12 iyul 2018-ci il tarixdə saat 12:00-da yuxarıda göstərilən ünvanda açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

**Tender Komissiyası.**

---

## M.F.Axundov adına Azərbaycan Milli Kitabxanası

# AÇIQ TENDER ELAN EDİR

**Tender 7 (yeddi) lot üzrə keçiriləcəkdir:**

**LOT-1.** Dəftərxana ləvazimatı və təsərrüfat malları

**LOT-2.** İdarənin digər xərcləri

**LOT-3.** Avadanlıqların alınması

**LOT-4.** Kompüter proqramlarının alınması və yazılması

**LOT-5.** Sair xərclərin alınması

**LOT-6.** Kommunal-kommunikasiya xidməti

**LOT-7.** Cari təmir işləri

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş və imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə imkanlarına malik olmalıdırlar. Tədbirdə iştirak etmək istəyənlər lot üzrə 250 (iki yüz əlli) AZN aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş tenderin əsas şərtlər toplusunu ala bilərlər.

*VÖEN: 1700241041*
*Hesab:*
*AZ27CTRE00000000000005468301*
*Adı: Dövlət Xəzinadarlıq Agentliyi*
*Kodu 210005*
*VÖEN:1401555071*
*Müxbir hesab:*
*AZ41NABZ01360100000000003944*
*S.W.I.F.T. CTREAZ22*

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün kimi aşağıdakı sənədləri təqdim etməlidirlər:

*—tenderdə iştirak etmək üçün ərizə;*

*—tender təklifi dəyərinin 2 faizi həcmində bank təminatı (zərfləri açıldığı gündən ən azı 60 bank günü qüvvədə olmalıdır);*

*—Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanlarından arayış;*

*—iddiaçının son bir il ərzində fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*

*—iddiaçının müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları, işlərin yerinə yetirilməsi üçün analoji işlərdə təcrübəsi;*

*—iddaçının son bir il ərzində maliyyə vəziyyəti barədə bank tərəfindən verilmiş arayış;*

*—iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri.*

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklif və bank zəmanəti istisna olmaqla 3 iyul 2018-ci il saat 17:00-a qədər, tender təklifi və bank zəmanətini isə möhürlənmiş ikiqat zərfdə 11 iyul 2018-ci il saat 17:00-dək təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

Təkliflər 12 iyul 2018-ci il saat 12:00-da qeyd olunan ünvanda açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

**Ünvan:** *Bakı şəh., Səbail ray., Xəqani küç.-29*

**Əlaqələndirici şəxs:** *Nəsrullayeva Rubabə.*

**Tel.:** *(012) 493-51-24.*

**Tender Komissiyası.**

---

## ALLAH RƏHMƏT ELƏSİN

**"Respublika" qəzetinin əməkdaşı Kamil İsmayılov həmyerliləri**

**ƏFRAZ XUDİYEV və FƏRİD TAĞIYEVİN**

**faciəli vəfatından kədərləndiyini bildirir və ailə üzvlərinə dərin hüznlə başsağlığı verir.**

---

**Səbail Rayon Gigiyena və Epidemiologiya Mərkəzinin direktoru Abasqulu İsmayılov və kollektivi Mərkəzin həkim-gigiyenisti**

**FİRDOVSİ ŞÜKÜR oğlu TAĞIYEVİN**

**vəfatından kədərləndiklərini bildirir və ailə üzvlərinə dərin hüznlə başsağlığı verirlər.**

**Baş redaktor Teymur ƏHMƏDOV**

● Redaksiyanın telefonları:

İqtisadiyyat və islahatlar redaksiyası: **539-95-51;**
Siyasət, ictimai problemlər və analitik təhlil redaksiyası: **538-55-20;**
Beynəlxalq əlaqələr, dövlət quruculuğu və hüquq redaksiyası: **539-26-18;**
Humanitar siyasət redaksiyası: **538-25-70;**
Xəbərlər redaksiyası: **538-61-02;**
İctimai rəy və sosial problemlər redaksiyası: **539-95-51; 538-43-41 tel/faks;**
Qəbul otağı: **538-25-70;**
Katiblik: **538-25-70;**
Reklam və elan xidməti: **441-20-23.**



● Redaksiyanın ünvanı:

AZ1073, Bakı
Mətbuat prospekti, 529-cu məhəllə, VII mərtəbə.
**E-mail:** resp@azdata.net
www.respublica-news.az

*"Respublika" qəzetinin kompyuter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında ofset üsulu ilə çap olunmuşdur.*
Qeydiyyat № 7.

**İndeks** 0240
**Tiraj** 4292
**Sifariş** 023
Qəzetin satış qiyməti 40 qəpik

**Məsul növbətçi Kamal İBADOV**

● Çapa imzalanmışdır 22.05.2018